# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 6 Noyabr - Azərbaycan Televiziyası və Radiosu Günü




5

SƏS

№ 204 (7372)

6 noyabr 2025-ci il.
Qiyməti 60 qəpik

# 2020-2025:

## Azərbaycan ZƏFƏR tarixi xronologiyasını yazdı



3

# Müstəqillik tariximizin 44 günü!



8

### Hikmət Hacıyev Böyük Britaniyanın dövlət naziri ilə görüşüb



4

### "Heç bir məntiqli insan məktəbin bağlanması haqqında düşünə bilməz"



4

### "Növbəti ildən pensiyalar 9,2 % artırılacaq" - Deputat



16

### Paşinyan Putinin "əllərini" İrəvandan kəsir...



6

### Peru mətbuatı Qarabağdan yazır: Beş il sonra - qələbə, dağıntılar və ümid arasında



RICARDO SÁNCHEZ SERRA

LA RAZON

Karabaj: cinco años después, entre victoria, ruinas y esperanza

2



# “Azərbaycanda əlverişli investisiya və biznes mühiti yaradılıb”

*Prezident İlham Əliyev Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 5-də Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə, Əbu-Dabi İnkişaf Fondunun Baş direktoru, Əbu-Dabi İxracat Ofisinin (ADEX) İcraiyyə Komitəsinin sədri Məhəmməd Saif Əl-Süveydi, Səudiyyə İnkişaf Fondunun Baş icraçı direktoru Sultan Əbdülrəhman Əl-Marşad və Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun Baş direktoru vəzifəsini icra edən Valed Əl-Bahar daxildir.***

Dövlətimizin başçısı Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların xüsusilə indiki dövrdə - Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-tikinti işləri apardığı zaman ölkəmizdə sosial infrastrukturun inkişafı ilə bağlı layihələrə dəstək vermək niyyətini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar qonaqların təmsil etdikləri maliyyə institutları və ölkələrin xalqları ilə qardaşlıq, dostluq münasibətlərimizi genişləndirir.

Azərbaycanda əsas infrastruktur layihələrinin artıq tamamlandığını deyən dövlətimizin başçısı su, nəqliyyat və digər sahələr üzrə dövlət proqramlarının icra edildiyini və gələcəkdə də müxtəlif istiqamətlər üzrə dövlət proqramlarının qəbul olunacağını vurğuladı.

Görüşə görə nümayəndə heyətinin adından dövlətimizin başçısına təşəkkür edən İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir işğaldan azad edilmiş Qarabağda, Şuşada olmaqdan məmnunluğunu bildirdi, orada aparılan işlərin dərin təəssürat hissi doğurduğunu dedi.

Söhbət zamanı Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında uğurlu və səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulandı, ölkəmizdə yaradılan əlverişli investisiya və biznes mühitinə toxunuldu, əməkdaşlığın perspektivləri müzakirə edildi. Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

# “The Diplomat”: Azərbaycanın inkişaf etmiş nəqliyyat sistemi var və bu olmadan Orta Dəhlizin fəaliyyəti mümkün deyil

Noyabrın 6-da Mərkəzi Asiya respublikalarının prezidentləri Vaşinqtonda Amerika Prezidenti Donald Tramp ilə görüşəcəklər. C5+1 formatında keçiriləcək sammitdə əhatəli məsələlər müzakirə olacaq. Cənubi Qafqaz respublikalarının, xüsusilə də Azərbaycanın bu sammitə qatılması ABŞ-ın Avrasiyaya daha dərin nüfuz etməsinə geniş imkanlar yaradar. Bu fikir ABŞ-da nəşr olunan ”The Diplomat” analitik jurnalında dərc olunan ”ABŞ və Mərkəzi Asiya: C5+1 nədir?” sərlövhəli məqalədə yer alıb.




Materialda qeyd olunur ki, bu formatda indiyə kimi belə yüksək səviyyədə görüş keçirilməyib. Mərkəzi Asiya respublikaları nadir yer metalları, enerji və su resursları ilə olduqca zəngin bir regiondur. ABŞ-ın bu regiona nüfuz etməsi buradakı dövlətlərin Çin, Rusiya və Avropa İttifaqı arasında balanslaşdırılmış siyasət yürütmələrinə böyük imkanlar yaradacaq. Buradakı faydalı qazıntıları həyata keçirmək üçün ABŞ-ın texnologiyasına və sərmayəsinə böyük ehtiyac var. Yataqların işlənilməsi və dünya bazarına çıxarılması tərəflərin iqtisadi maraqları ilə yanaşı siyasi maraqlarını da təmin edər. Mərkəzi Asiya respublikalarının Qərb bazarlarına çıxışı isə yalnız Azərbaycan vasitəsi ilə mümkündür. Xəzər dənizinin Azərbaycan sahilində yerləşən Ələt dəniz limanı Qərb bazarlarına çıxışı təmin edən yeganə vasitədir. Azərbaycan Orta Dəhlizin inkişafı üçün geniş infrastruktur layihələr həyata keçirib və tranzit yükdaşımaları üçün əhatəli dəmir yoluna malikdir.

Materialda nəzərə çatdırılır ki, Azərbaycan Prezidenti İlham Əliyev regional zirvə görüşlərində fəal iştirak edir, genişlənən Mərkəzi Asiya məkanının ayrılmaz hissəsi kimi Bakının imicini formalaşdırır. Azərbaycanın inkişaf etmiş nəqliyyat və enerji kommunikasiyaları sistemi var və bu sistem olmadan Orta Dəhlizin fəaliyyəti mümkün deyil. Məhz buna görə də amerikalı analitiklərin fikrincə, Azərbaycanın C5+1 formatına daxil edilməsi geosiyasi reallığın tanınması olardı: axı, Mərkəzi Asiya ilə Qərb arasında əsas enerji və ticarət yolları Bakıdan keçir. Belə genişlənmə formatın enerji və investisiya potensialını artıracaq və ona real strateji dərinlik verəcək. Buna görə də Vaşinqton üçün Azərbaycanın müşahidəçi statusu və ya genişləndirilmiş ”C6+1” konfiqurasiyasında iştiraka cəlb etməsi daha məntiqli addım ola bilər.

Məqalədə deyilir ki, xüsusi əhəmiyyət kəsb edən layihə Ermənistanı Orta Dəhlizə birləşdirəcək və Transxəzər yük daşımalarının həcmini iki dəfədən çox artıracağı proqnozlaşdırılan Zəngəzur Dəhlizi (Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu, TRIPP) layihəsidir. Bu təşəbbüsün həyata keçirilməsi təkcə Azərbaycan və Ermənistan arasında sülhü gücləndirməklə yanaşı, həm də bütün regionun davamlı inkişafı üçün iqtisadi stimul yaradacaq.

Məsələyə daha əhatəli baxılsa, ABŞ C8+1 formatı da təsis edə bilər ki, burada Mərkəzi Asiyanın 5 və Cənubi Qafqazın 3 dövləti daxil olar. Belə format Amerikaya Avrasiya regionunda daha üstün mövqe qazandırar.

## Peru mətbuatı Qarabağdan yazır: Beş il sonra - qələbə, dağıntılar və ümid arasında

Perunun ”La Razon”, ”Prensa21” və ”FPP” media qurumlarında Azərbaycanın Zəfər Gününün 5-ci ildönümü ilə bağlı məqalələr dərc olunub. Ölkəmizin Perudakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, məqalələrin müəllifi Rikardo Sançes Serra 2020-ci il noyabrın 8-nin Azərbaycan üçün dönüş nöqtəsi olduğunu vurğulayaraq, bu Qələbənin yalnız hərbi deyil, həm də milli və mədəni dirçəlişin simvolu kimi qeyd edildiyini bildirib. Qeyd olunub ki, 44 günlük müharibə nəticəsində Azərbaycan öz torpaqlarını geri qaytarıb və bununla da onilliklər boyu davam edən erməni işğalına son qoyulub.



LA RAZON

RICARDO SÁNCHEZ SERRA

LA RAZON

Karabaj: cinco años después, entre victoria, ruinas y esperanza

El 8 de noviembre de 2020 marcó un punto de inflexión en el Cáucaso Sur. Ese día, Azerbaiyán celebró la recuperación de la ciudad de Shushá, símbolo cultural e histórico, en el marco de la Segunda Guerra de Nagorno-Karabaj. La victoria militar, tras 44 días de intensos combates, fue seguida por la firma de un acuerdo de alto el fuego mediado por Rusia, que puso fin a décadas de ocupación armenia en territorios reconocidos internacionalmente como azerbaiyanos.

Desde la perspectiva de Azerbaiyán, el 8 de noviembre es el Día de la Victoria: una fecha que honra el retorno de tierras ancestrales y el sacrificio de miles de soldados. Para Armenia, en cambio, representa una herida abierta, una derrota dolorosa que provocó una crisis política interna y el desplazamiento de comunidades armenias (léase “implantadas”) que habían vivido en Karabaj durante décadas. Desde una mirada neutral, el conflicto dejó un saldo humano devastador, con miles de muertos, desplazados y ciudades arrasadas.

Müəllif müharibədən sonra Qarabağa səfəri zamanı şahidi olduğu dağıntılardan bəhs edir və bunu ”mədəni soyqırımı” kimi səciyyələndirir.

Diqqətə çatdırılır ki, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərin bərpasını milli prioritet elan edib və Azərbaycan hökuməti regionun yenidən qurulması, həmçinin keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı üçün milyardlarla dollar dəyərində layihələr həyata keçirir. Lakin mina təhlükəsi bu prosesi ləngidir.

Yazıda, həmçinin Prezident İlham Əliyevin ”Qarabağ Azərbaycan torpağıdır və bunu bütün dünya qəbul edir” fikri sitat gətirilərək, Azərbaycanın suverenliyinin bərpası böyük siyasi və mənəvi qələbə kimi təqdim olunur.

# 2020-2025:

## Azərbaycan ZƏFƏR tarixi xronologiyasını yazdı

***2020-ci və 2025-ci illər Prezident İlham Əliyevin liderliyi ilə xalqın itirilmiş torpaqlarının qaytarılması Azərbaycanın Zəfər tarixi adlı yeni xronologiyasını yaradıb. O xronologiya ki, tarixin 270 ildən çox axınını dəyişib göstərdi ki, zaman ona hökm oxuyan şəxsiyyətləri xalqların həyatına bəxş edə bilir. Bəxş edir ki, itirdiklərini yenidən onlara qaytara bilsin.***

2025-ci ilin 8 avqustu 2020-ci ildən qələbədən qələbəyə addımlayan Azərbaycanın şanlı tarixinə yeni bir hadisəni əlavə etməklə Zəfər xronologiyasını belə sıraladı: 2020-ci il sentyabrın 27-dən 10 noyabradək Azərbaycanın əldə etdiyi tarixi qələbə - 44 günlük Vətən müharibəsi, 2023-cü il 20 sentyabr antiterror əməliyyatı, 2024-cü il aprelin 18-dən Rusiya sülhməramlılarının Azərbaycandan çıxarılması və 2024-cü il aprelin 19-da Qazaxın 4 kəndinin Azərbaycana qaytarılmasını təsdiq edən birgə bəyanat və 8 avqust 2025-ci ildə ABŞ-də Zəngəzur dəhlizinin açılması ilə bağlı imzalanan sənəd. Bu, Zəfər, eyni zamanda qürur tarixidir.



### Xalqın qürur, namus və iffətinin xilası

Zaman göstərdi ki, məhz Heydər Əliyev və Zərifə xanım Əliyeva kimi dahi insanların, gözəl ata-ananın, ləyaqətli vətəndaşların, ictimai xadimlərin, vətənpərvər insanların ailəsində İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdıracaqdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevriləcəkdi. 30 il işğal altında olan torpaqlara görə başını dik tuta bilməyən xalqın başını zirvələrə qaldıracaqdı. Xalqa qürurunu, namusunu, iffətini qaytaracaqdı. Azərbaycanın işğal olunan torpaqlarının azad olunması ilə tarixin 270 ildən artıq zaman kəsiyinin axarını dəyişəcəkdi.



Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın bir gün geri qaytarılması üçün mübarizəsinin davamçısı oldu cənab İlham Əliyev. O, tək ailəsinin deyil, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Dövlətimizin başçısı kimi fəaliyyət dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib.

Qarabağ məsələsi isə bir an da unudulmadı. Liderimizin bütün bayramlarda xalqa müraciətlərdə Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...

Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizim Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.

Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistandan dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa, hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlayacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanı çatdığını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi.

### 90-ların səhvini 2020-də düzəldən LİDER

Qarabağ 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi. Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlətmək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox, ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi. Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, ev-eşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu. Bunu xalq sonradan bildi, AXC-Müsavat birliyinə etimadını itirdi. Onların hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında minlərlə şəhid, qazi, məcburi köçkünlükdə əzab çəkən insan vardı. Azərbaycanın işğal olunan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilməyən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik. Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdi.

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

Böyük itkilər verdiyimiz 44 gündə Zəfər qazandıq. Bu itkilərin də səbəbkarları onlardır-AXC-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, Böyük Qayıdış başlansa da, yaxın gələcəkdə soydaşlarımız tamamilə ata-baba yurdlarına qayıtsalar da, AXC-Müsavat birləşməsinin üzvlərinin bu xalqa vurduğu maddi və mənəvi zərər heç vaxt unudulmayacaq. Torpaqlarımızın azad olunmasından sonra onların hələ də ölkədə sifarişli iğtişaş yaratmaq cəhdləri isə xalqımız tərəfindən əsla unudulmayacaq. Çünki onlar müharibə zamanı həmrəy olan, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında birləşən xalqla birlikdə olmadılar. Hələ üstəlik müharibədən sonra yeni iddialarla çıxışlar etdilər. Hanı Xankəndi, hanı Xocalı, deyib, Zəfərimizə kölgə salmaq istədilər. Lakin düşünmədilər ki, bu proseslərin hamısı eyni zamanda ola bilməzdi.

2023-cü ilin 20 sentyabrında birgünlük lokal xarakterli antiterror əməliyyatlarından sonra ermənilərin könüllü şəkildə Xankəndi, Xocalı və digər yurdlarımızdan çıxmasından sonra isə radikal müxalifət sülhməramlı qüvvələrin nə üçün Qarabağda qaldığını günün əsas mövzusuna çevirdi. Lakin bu dəfə də anlamaq istəmədi ki, axı bunların həlli üçün zaman lazımdır. Özləri də bilə-bilə ki, bu işlər heç də asan deyil, Ermənistanın arxasında havadarları var, lakin yenə də əldə edilmiş qələbəyə kölgə salmaq prinsipindən əl çəkmədilər.

Beləliklə, 2024-cü ilin aprel ayının 18-dən Rusiyanin sülhməramlı qüvvələri Qarabağı tərk etməyə başladıqdan sonra isə mövzuları bitməkdə olan radikal müxalifətə xarici qüvvələrin qrandları hesabına iğtişaş törətmək əmri verildi. Bu dəfə isə "nə edək ki, həm qrandlar əldən çıxmasın, həm də gündəmdə qalaq" prinsipi ilə yeni iddialara başladılar. Toplaşmaq, guya xalqa yol göstərmək fikrinə düşdülər. Göründə ki, toplaşmaq da onların özü kimi 90-larda qalıb, çəkilib bir kənarda dayanmaqdan başqa çarə görmədilər.

Bunun ardınca Qazaxın 4 kəndinin azad olunası barədə sənədin imzalanması isə xaricdən ermənilərə havadarlıq edənlər kimi, onlara da tutarlı cavab oldu.

### Zəngəzur dəhlizi: Zəfər xronologiyasının davamı

Kimin nəyi necə arzulamasından asılı olmayaraq bu xalqın taleyinə Zəfər xronologiyasını sıralamaq yazılıb. Bu gün Qarabağda yenidənqurma və bərpa işləri davam edir. Müharibədən dərhal sonra başlanan işlərin sürətlə aparılası soydaşlarımızın evlərinə daha tez qayıtmasına xidmət edir. Qarabağın inkişaf etdirilməsi, hər bir işğaldan azad edilmiş rayonumuzla bağlı Liderimizin fikirləri bu yurdların yaxın gələcəkdə böyük inkişafından xəbər verir.

Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər isə nəinki xalqımızın, region dövlətlərinin də gələcək inkişafına hesablanmış addımdır. Ermənilər üçtərəfli 10 noyabr Bəyanaməsində üzərinə düşən öhdəliyi icra etməsələr də, bizim Liderimiz bütün məsələlərin həllinin öhdəsindən gəlir. Çünki artıq dünyanın böyük ölkələri də bizi dinləyir, haqqın tərəfimizdə olduğunu anlayır. Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində görüşünə dair imzalanan Birgə Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı müddəanın yer alması Zəfər xronikasının davamı idi. Bu Bəyannamə dövlətimizin başçısının son beş ildə Zəngəzur dəhlizinin açılması-Naxçıvanın aid olduğu ölkə ilə quru yolunun bərpa olunması istiqamətində yorulmaz fəaliyyətinin uğurlu nəticəsidir. Baxmayaraq ki, bu yolda da olmazın maneələri ilə qarşılaşdıq.

Beləliklə, Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına qayıtması, Zəngəzur dəhlizinin açılması, Naxçıvan blokadasının yarılması kimi gündəmdə olan məsələlərimiz yaxın gələcəkdə öz müsbət həllini tapacaqdır. Çünki bütün bunların hər biri ayrı-ayrılıqda Prezidentin diqqətindədir və görülən işlər, aparılan danışıqlar müsbət yöndədir.

Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin parlaq ruhu bizimlədir. Çünki ağsaqqal olan yerdə Allah var, deyərlər. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən Prezidentimiz xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu.

***Mətanət Məmmədova***

# "Heç bir məntiqli insan məktəbin bağlanması haqqında düşünə bilməz"

## *Media kapitanlarından münasibət*

***İki gün öncə Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidin qəzetlərlə bağlı dediyi fikirlər böyük müzakirələrə səbəb olub. O bildirib ki, çap mətbuatının davam gətirməsi mümkünsüzdür. Onun sözlərinə görə, dövlət yazılı mətbuatın yaşaması üçün uzun illərlə dəstək olub və bunun hesabına qəzetlər fəaliyyət göstərir: "Qəzetlərin gəlir yeri reklamlardır, bu isə yoxdur. Qəzet satışı sıfırlanıb, yeni nəsil qəzet oxumur, bəziləri isə heç onun nə olduğunu bilmir. Təəssüf ki, Azərbaycanda yazılı mətbuat son günlərini yaşayır. Mən düşünmürəm ki, onu xilas etmək mümkündür. Çünki dünya tamamilə dəyişib, yeni nəslin qəzet yaddaşı yoxdur. Yalnız köhnə nəslin nümayəndələrindən bəziləri qəzet oxuyur".***



Məsələyə münasibət bildirən SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev SİA-ya açıqlamasında bildirib ki, elə qəzetlər var ki, həqiqətən də müasir dövrlə uzlaşmırlar və müasir dünyanın tələblərinə cavab vermirlər: "Belə qəzetlərin bağlanması bəlkə də zərurətə çevrilib. Ancaq elə qəzetlər var ki, məsələn "SƏS" qəzeti kimi bir qəzet Azərbaycanın müstəqillik tarixində böyük rol oynamış ilk xəbərçilərdən olub. Eyni zamanda "SƏS" qəzeti təkcə qəzet kimi fəaliyyət göstərməyib, bir məktəb olaraq Azərbaycan dövlətçiliyinin, azərbaycançılıq ideologiyasını təbliğ edən və nəzəri bilikləri öyrənmiş jurnalistlərə praktik biliyi tədris edən məktəbdir. Ona görə də məktəb kimi bir qəzet hesab edirəm ki, bütün dövrlərdə lazımdır. "SƏS" qəzeti elə bir məktəbdir ki, burada Azərbaycanın canlı tarixi yatır.



Azərbaycan tarixinin arxivi məhz bu qəzetin səhifələrindədir. Ona görə də "SƏS" qəzetinə həm qəzet kimi, həm məktəb kimi, həm də Azərbaycan tarixini yaşadan bir qəzet kimi baxmaq lazımdır. Belə bir məktəbin bağlanmasını absurd hesab edirəm. Heç bir məntiqli insan məktəbin bağlanması haqqında düşünə bilməz. "SƏS" kimi qəzetlərin yaşaması çox vacibdir. Çünki "SƏS" qəzeti müstəqil Azərbaycanın tarixidir".

"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev: "Rəşad Məcidin fikirləri onun üçün gözlənilməz olub. Çap mediasının tarixə qovuşması fikri doğru deyil. Dünyanın heç bir ölkəsində çap mediası tarixə qovuşmayıb. Bütün dünyada qəzetləri qoruyub, saxlayırlar. Qəzetlər üzərində iformasiya şəbəkəsini daha da genişləndirirlər. Çap mediasının dövrünün bitməsi ilə bağlı fikirləri mən dünyanın heç bir ölkəsinin rəsmilərinin dilindən eşitməmişəm".

"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev: "İndiki şəraitdə çap mediasının üzləşdiyi çətinliklərə medianın ümumi problemləri kontekstindən yanaşmağın tərəfdarıyam. Bəli, həqiqətən də son illərdə çap mediası ciddi çətinliklərlə üzləşib. Ölkədə yayım şəbəkəsi demək olar ki, sıradan çıxıb. Sosial media, saytlarla rəqabət aparmaq çətinləşib. Amma mənim fikrimcə, bunu əsas tutaraq "qəzetlər oxunmur, onları bağlamaq lazımdır" yanaşmasını ortaya qoymaq doğru deyil. O məntiqlə yanaşsaq, gərək saytları da bağlayaq. Çünki dövlət büdcəsindən 40-a yaxın sayt maliyyələşdirilsə də, ölkədə birbaşa girişi olan saytların sayı barmaqla sayılacaq qədərdir. O girişlərin də çoxu sosial şəbəkələr üzərindədir. Amma bunlar saytların bağlanması qərarını vermək üçün əsas ola bilməz. Əksinə, dövlət və cəmiyyət saytlara mümkün olduğu qədər dəstək verməlidir.

Düşünürəm ki, ümumiyyətlə indiki keçid dövründə ənənəvi media strukturları qorunub saxlanılmalıdır. Həm dövlətimiz, həm də jurnalist təşkilatları bu işdə qəzetlərin yanında olmalıdır. Onsuz da bazar şərtləri ənənəvi qəzetlərin sayını və tirajlarını kəskin şəkildə azaldıb. Heç olmasa, indiyədək varlığını qoruyub saxlayan qəzetlərin yaşadılması üçün dəstək göstərilməlidir. Qəzetlərin problemləri öyrənilməli, onlara dəstək üçün hansı addımların atılmalı olduğu dəqiqləşdirilməlidir. Bir məqama da diqqət edilməlidir ki, hələlik dünyanın heç bir ölkəsində "qəzetlər oxunmur, bağlayaq" qərarı verilməyib. Hətta Afrika ölkələrində belə qəzetlər çap olunur. Belə olan halda, Azərbaycanın bu işdə birincilərdən olması heç də ürəkaçan fakt olmazdı".

"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu: "Vəziyyətin səbəbləri illər ərzində sistemli şəkildə yığılıb. Onun sözlərinə görə, səbəblər müxtəlifdir:

1. Kontentin gücsüzləşməsi: "Oxucu xəbəri daha tez, daha rahat və pulsuz şəkildə internetdən əldə edir. Qəzet isə çox hallarda təkrara çevrilib və fikir dərinliyi zəifləyib".

2. Yayım və çatdırılma sisteminin çökməsi: "Köşk şəbəkəsinin dağılması, abunə sisteminin geriləməsi, regionlara çatdırılmanın çətinləşməsi tirajın azalmasına səbəb olub".

3. Texniki və vizual gerilik: "Qəzetlərin dizaynı, kağız keyfiyyəti, səhifə sayı və ümumi vizual görüntüsü müasir oxucunun gözləntilərinə cavab vermir".

4. Peşəkar kadr axını: "Təcrübəli jurnalistlər daha yüksək qazanc və daha dinamik iş mühiti olan onlayn platformalara keçiblər. Qəzetlər redaksiya potensialını mərhələli şəkildə itirib. Bu gün Azərbaycan informasiya məkanının dərinləşməsi, cəmiyyətin intellektual müzakirə mədəniyyətinin qorunması, ictimai yaddaşın formalaşması üçün çap media lazımdır və qalmalıdır. Qəzetin bağlanması sadəcə bir media vahidinin yox olması deyil, düşüncə mədəniyyətinin zəifləməsidir. Qəzet ölməyib. O, sadəcə yenidən doğulmağa ehtiyac duyur".

***İlkin Məmmədkərimov***



# Hikmət Hacıyev Böyük Britaniyanın dövlət naziri ilə görüşüb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 12-də Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti ilə görüşüb. SİA xəbər verir ki, Hikmət Hacıyev bu barədə özünün "X" sosial media hesabında paylaşım edib.

"Bu gün Böyük Britaniyanın Avropa, Şimali Amerika və Dənizaşırı Ərazilər üzrə Dövlət Naziri Stiven Daudti ilə strateji tərəfdaşlıq ruhunda məhsuldar görüş keçirdim. Görüş zamanı əlaqələrimizi genişləndirmək və dərinləşdirmək məqsədilə nəqliyyat əlaqələri, süni intellekt, kibertəhlükəsizlik, rəqəmsallaşma, təhsil, həmçinin müdafiə və hərbi əməkdaşlıq kimi yeni istiqamətlər üzrə müzakirələr apardıq. Həmçinin bu axşamkı oyunda "Qarabağ" və "Çelsi" komandalarına uğurlar arzuladım!", - paylaşımda qeyd olunub.

# "Radio sayəsində Azərbaycan xalqı ilk dəfə vahid informasiya məkanında birləşib"

## *ŞƏRH EDİLDİ*



**"1926-cı il noyabrın 6-da ilk dəfə efirə çıxan "Azərbaycan radiosu"nun fəaliyyəti təkcə kütləvi informasiya vasitəsi qismində xidmət göstərməklə tamamlanmayıb. O öz dövrü üçün böyük ictimai-siyasi hadisə idi". Bu sözləri SİA-ya açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli deyib. Onun sözlərinə görə, radio xalqımızın tarixində, mədəniyyətində, milli şüurunun formalaşmasında mühüm rol oynamış bir institutdur: "Bu radio sayəsində Azərbaycan xalqı ilk dəfə vahid informasiya məkanında birləşib. Kəndlərdə, şəhərlərdə, uzaq bölgələrdə yaşayan insanlar eyni vaxtda xəbərləri, musiqiləri, siyasi məruzələri dinləməyə başlayıblar. Beləliklə, "Azərbaycan radiosu" xalqımızın məlumatlanmasına, maarifləmnəsinə, mənəvi birliyinin formalaşmasına, milli kimliyinin möhkəmlənməsinə ciddi töhvələr verib.**

1930-1950-ci illərdə onun vasitəsilə kütləvi savadlandırma proqramları icra edilib. Ədəbiyyat, dil, tarix və elmi mövzularında verilişlər hazırlanıb. Xüsusilə kənd yerlərində yaşayan insanlar üçün biliklər çatdırılıb. Yəni, "Azərbaycan radiosu" xalqımızın maarifinin, elm və mədəniyyətin formalaşmasında, inkişafında və təbliğində əvəzsiz vasitəyə çevrilib. Milli musiqimizin - muğamın, xalq mahnılarının, aşıq sənətinin və professional bəstəkarlıq məktəbinin qorunub gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayıb. "Azərbaycan radiosu" xalqımızın taleyində həlledici rol oynamış ictimai-siyasi proseslər dönəmində mühüm institutlardan biri kimi çıxış edib. Qarabağ hadisələrinin başlanğıc dövründə və dövlət müstəqilliyinin bərpası illərində radio xalq üçün ən etibarlı informasiya mənbələrindən biri kimi çıxış edib. 1990-cı ilin 20 Yanvar faciəsi zamanı insanlar məhz radiodan real məlumatlar alırdı.

Əlamətdar haldır ki, "Azərbaycan radiosu" tarixin səhifələrində ilişib qalmayıb, bu gün də xalqımızın ictimai-siyasi həyatında mühüm rol oynayır. Milli dövlətçilik ideyalarının təbliğində, gənc nəslin milli-mənəvi tərbiyəsində, Azərbaycanın beynəlxalq səviyyədə tanıdılmasında önəmli informasiya vasitəsi olaraq fəaliyyətini davam etdirir".

***Arzu Qurbanlı***

# 6 Noyabr - Azərbaycan Televiziyası və Radiosu Günü

Xalqın maarifləndirilməsi, əxlaqi-estetik tərbiyəsi, məlumatlandırılması kimi təməl prinsiplərini fəaliyyət məqsədinə çevirən radio istənilən məkanda dinləyicilərin dostu olaraq, hər nəslin müasirinə çevrilir. 1926-cı ilin 6 noyabr tarixində Azərbaycan radiosunun yaradılması ölkənin ictimai-mədəni həyatında əhəmiyyətli hadisə oldu. Bu yenilik minlərlə dinləyiciyə xoş ovqat bəxş etdi. Hər kəsin evinə yeni bir abhava daxil oldu. Bir əsrə yaxındır ki, insanlara yol yoldaşı olan Azərbaycan radiosu tarixi bir yol keçib. XX əsrin ən möhtəşəm kəşflərindən olan və hər gün insanlarla ünsiyyət yaradan, cəmiyyət həyatında əvəzsiz yer tutan radio yarandığı zamandan informasiya liderliyini qoruyub-saxlaya bilib. Neçə-neçə onilliklər arxada qalıb. Xalqın bir əsrə yaxın tarixi ilə birgə yol gələn Azərbaycan radiosu keşməkeşli günlərin də, xoş soraqların da tarixini əbədiləşdirib. Sirli-soraqlı dünyamızdan bizlərə məlumatları çatdıran radiomuz bu illərdə, qərinələrdə olan tariximizin keşməkeşli, uğurlu zamandan dinləyicilərinə danışıb. Bəzən sevindirib, bəzən kövrəldib, bəzən də tariximizin dönəmində bizləri düşündürüb. Nələri bizə danışmayıb.

Diqqətimizi ondan çəkməmişik. Axı əsrlərin tarixindən süzülüb gələn ulu babalarımızın yaşadığı zaman, bu günün həqiqətləri radiodan eşitdiyimiz məlumatlarda bizləri böyük bir xalqın keçdiyi yol ilə baş-başa qoyub. Bu gün radionun bütün proqramları milli-mənəvi dəyərləri, milli adət və ənənələri, mədəniyyət və incəsənətin bütün rəngarəngliyini özündə əks etdirir. Müxtəlif məzmunlu proqramlar hazırlayarkən cəmiyyətdəki siyasi əqidələri, dini baxışları, ictimai fikir və rəyin müxtəlif cərəyanlarını, habelə, ölkə vətəndaşlarının hüquq bərabərliyini nəzərə alır. Bu gün də Azərbaycan radiosuna maraq azalmayıb və hər gün dinlədiyimiz xəbərlər bizə ölkəmizin ictimai-siyasi mədəni həyatı ilə bağlı əhəmiyyətli hadisələri çatdırır.

## ZƏNGİN TARİXİ YOLDA

Qısa da olsa Azərbaycan radiosunun yaranma günündə şərəfli, zəngin tarixi yoluna nəzər salaq. Xalqı ilə hər zaman təmasda olan, ötən və yaşanılan hadisələri dinləyicisinə çatdıran Azərbaycan radiosu "Sabahınız xeyir olsun, əziz dinləyicilər", "Axşamınız xeyir olsun, hörmətli dinləyicilər", deyərək günün istənilən zamanında dinləyicilərinə yeni xəbərləri, xoş ovqatları çatdırmağa çalışıb. Tarixi dövrü vərəqlədikcə "Satira atəşiylə", "Ədəbiyyatın vəzifələri", "Radio saatı" kimi verilişlərin səsləndirilməsi ilə ilk, kövrək addımlarını atan radio qısa bir zamanda zəngin verilişlərin yaradıcısına çevrilir. Təbii ki, radioda yeni verilişlərin hazırlanması və yeniliklər yeni, istedadlı kadrların cəlb olunmasını tələb edirdi. Radionun ilk azərbaycanlı diktorları Azərbaycan Politexnik İnstitutunun tələbəsi İsmayıl Əlibəyov və Azərbaycan Dövlət Darülfünunun hüquq-iqtisad fakültəsinin tələbəsi Raya İmanzadə olurlar. Azərbaycan radiosunun inkişaf etdiyi sonrakı mərhələdə isə Fatma Cabbarova, Züleyxa Hacıyeva, Gültəkin Cabbarlı, Aydın Qaradağlı, Sabutay Quliyev, Ramiz Mustafayev kimi ustad diktorlar yetişirlər. Radioya peşəkar mütəxəssilərin yol açması Azərbaycan radiosunun gündəlik verilişlərinin həcminin artmasına gətirib çıxarır. İlk verilişlərin hazırlanmasında Azərbaycan ədəbiyyatı və incəsənətinin görkəmli xadimləri fəal iştirak edirdilər. Bədii və musiqili verilişlərin müəllifləri Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun, Hüseynqulu Sarabski, Bülbül, Mustafa Mərdanov kimi Azərbaycan mədəniyyətində yeri və çəkisi olan sənətkarlar olur. Qısa məsafədə radionun dinləyici auditoriyası da genişlənir və Bakıda 35 kilovat gücündə yeni radio stansiyasının işə salınması ilə Azərbaycan radiosunun verilişləri Qafqazda, Özbəkistanda, Türkmənistanda, hətta Qara dənizin şərq sahillərində eşidilir. 1940-cı ilin sonunda ölkə ərazisində radio nöqtələrinin sayı 51 minə çatır. 32 rayonda yerli radio verilişləri redaksiyaları fəaliyyətə başlayır. Azərbaycan radiosu ilə dinc və təmiz səma altında yaşayan insanlara Böyük Vətən müharibəsinin elan olunmasını - gərgin, fövqəladə, acınacaqlı bir xəbəri ictimaiyyətə çatdırmaq nə qədər çətin olsa da, bu gerçəkliyi hamıya bəyan etdi. 1941-ci il iyunun 22-nə keçən gecə müharibənin başlanmasını Azərbaycan dinləyicilərinə diktor Zəhra Salayeva zirzəmidəki yarımqaranlıq bir otaqdan xəbər verir. Həmin zamandan 5 il müddətində Azərbaycan radiosunun işçiləri faşizmlə mübarizədə mikrofonu ən kəsərli silaha çevirirlər. Müharibə dövrünün tələblərinə uyğun olaraq radio buraxılışları çox qısa müddətdə hazırlanır, verilişlər gecə-gündüz ara vermədən yazılır və montaj edilirdi. Ağır müharibə dövrünün ən çox dinlənilən verilişi "Azərbaycan - cəbhə üçün"ü hər kəs böyük həyəcanla gözləyirdi. Əsas ağırlıq isə, təbii ki, "Son xəbərlər" redaksiyasının üzərinə düşürdü. Hər gün dinləyiciyə mühüm məlumatlar, dövlət qərarları 30 dəqiqə ərzində tərcümə edilərək, Azərbaycan dilində çatdırılırdı. Elə qələbə sorağını da Azərbaycan dinləyicisi radio vasitəsilə eşidir. Həmin dövrdə SSRİ rəhbərliyi radionun ictimai-siyasi, mədəni həyatda və faşizmə qarşı mübarizədə oynadığı böyük rolu nəzərə alaraq, 1945-ci il mayın 2-də xüsusi qərarla mayın 7-sini Radio Günü elan edir. Bu tarixi gün uzun illər boyu Azərbaycanda da bayram edilir. Amma tarixi ədalət qələbə çalır. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan radiosunun yaranma günü - noyabrın 6-sı "Azərbaycan Televiziya və Radio işçilərinin peşə bayramı" elan olundu.




## XALQIN RUHU, FOLKLOR İRSİ VƏ TARİXİ MƏDƏNİYYƏTİ

Ötən əsri 70-ci illəri Azərbaycan radiosu üçün, xüsusilə əlamətdar olmuşdur. "Sabahınız xeyir", "Axşam görüşləri", "Bulaq", "Natəvan" qızlar klubu, "Lirika dəftərindən", "Muğam saatı", "Arzu" musiqi poçtu, "Yazıçı və zaman", "Mahnı şəhəri gəzir", "Teatr mikrofon qarşısında" kimi verilişlər radionun nüfuzunu daha da yüksəldir. Bu verilişlərdə xalqın ruhu, onun folklor irsi, tarixi mədəniyyəti kimi dəyərlər öz əksini tapır. Milli maraq və düşüncədən qaynaqlanan bu verilişlərin hazırlanması Ulu Öndər Heydər Əliyevin radioya ayırdığı diqqətdən irəli gəlirdi. Heydər Əliyev radionun böyük təbliğat mexanizmi olaraq aşıladığı dəyərlərin mahiyyətini müdrikcəsinə anlayırdı. Hər bir ailənin sevilən verilişi olan "Bulaq" belə milli verilişlərin ilk qaranquşu oldu. Ulu Öndərin xeyir-duası ilə fəaliyyətə başlayan bu radiotoplu ilk dəfə Azərbaycan efirinə şifahi nitqin ən koloritli, milli, etnoqrafik, xalq düşüncə tərzi ilə cilalanmış nəfəsini gətirdi. Radio dalğaları ilə Şərqə yayımlanan "Bulaq" xaricdəki soydaşlarımızın arzu və istəklərini vahid dil, düşüncə, ortaq Vətən duyğularını ifadə edən məktubları efirdə səsləndirdi. Ulu Öndərin göstəriş və məsləhəti əsasında daha sonra "Ozan" teletoplusu yaradıldı və tezliklə ümumxalq məhəbbəti qazandı. Radionun yaxın keçmişinə yazılan tarixi də Onun prinsipial mövqedən çıxış etdiyini bir daha göstərir. 1988-ci ildə başlanan Dağlıq Qarabağ münaqişəsi zamanı radio Azərbaycan xalqının maraqlarından çıxış etdi. Bu, 1990-cı ilin yanvarında özünü daha da qabarıq şəkildə göstərdi. Sovet imperiyası təkcə xalqı deyil, həm də Azərbaycan radiosunu susdurmağa cəhd edir.

## QƏLƏBƏ SORAĞI!

Qarabağ uğrunda erməni işğalçılarına qarşı savaşın başlanılması ilə radio hər gün Müdafiə Nazirliyinin məlumatlarını yayırdı. Dinləyicilərdə vətənpərvər hissləri gücləndirən "Açıq-aşkar", "Xudafərin", "Sözün düzü", "Baxış bucağı", "Dünya", "Pillə", "Çevrə", "Radio-atmaca", "Molla Nəsrəddin", "Yol", "Yuva", "Vaxt", "Dan yeri" kimi verilişlər hazırlanır, hərbi marşlar səsləndirilirdi. Azərbaycanın işğal olunmuş torpaqları, torpağın bölünməzliyi uğrunda canını sipər edən vətən oğullarının mübarizliyi və s. kimi fikirləri daim bizlərə çatdırıb Azərbaycan radiosu.

44 günlük Vətən müharibəsindən xəbərləri Azərbaycan televiziyası radiosundan aldıq. Azərbaycan radiosu xoş müjdələrlə bizləri sevindirdi. Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından bizə məlumat verdi radiomuz. Qələbə sorağını verdi. Füzulinin, Cəbrayılın, Zəngilanın, Şuşanın və başqa ərazilərimizin işğaldan azad olunma xəbərini çatdırdı. Qəhrəman oğullarımızın şücaətindən danışdı. Zəfərimizi dinlədikcə sevinc göz yaşımızı saxlaya bilmədik. Bizim yol yoldaşımız olan bu gün öz sözünü deyə bilən, öz fərqli dəsti-xətti ilə seçilən, ən güclü təbliğat sisteminə çevrilən radiomuz 99 ildir Azərbaycan dinləyicisi ilə yol gəlir. Bu yol hələ neçə-neçə onillikləri əhatə edəcək, xalqın milli tarixi, gələcəyi, Azərbaycanın dinamik inkişafı, uğurları, beynəlxalq mövqeyi ilə bağlı bizə çox xəbərləri çatdıracaq.

## 30 İL SONRA "GÖSTƏRİR BAKI!"

Azərbaycan televiziyası radiodan 30 il sonra - 1956-cı il fevralın 14-də fəaliyyətə başladı. İlk veriliş günü ekranda gənc aktrisa Nəcibə Məlikova göründü. Çıxışını "Göstərir Bakı!" kəlməsi ilə açan Nəcibə Məlikova tamaşaçıları televiziyanın fəaliyyətə başlaması münasibətilə təbrik edib. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirilib. 1957-ci ildən Azərbaycan televiziyası efirə həftədə 5 dəfə çıxmağa başladı və verilişlərin gündəlik həcmi 2 saat 20 dəqiqəyə çatdırıldı. 1962-ci ildə gündəlik efirə çıxan proqramların həcmi 7 saatadək artmışdı. 70-ci illərdən etibarən Azərbaycan televiziyasının gündəlik veriliş və proqramlarının yayım həcmi 10 saata, 80-ci illərdə 18 saata çatdırıldı. 2005-ci ilin yanvarından isə televiziya 24 saatlıq fasiləsiz yayıma keçdi.

1956-cı ildə Bakı televiziya studiyası və Radioinformasiya idarəsi ayrılıqda fəaliyyət göstərirdi. 1970-ci ildə televiziya Dövlət Televiziya və Radio Verilişləri Komitəsi statusu aldı. 1991-ci ildə komitə şirkətə çevrildi. 2005-ci ildən isə Azərbaycan Prezidentinin sərəncamı ilə şirkət "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə çevrildi.

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin başlanması Azərbaycan televiziyası üçün əsl sınağa çevrildi. Kommunist Partiyasının nəzarəti altında fəaliyyət göstərdiyindən və SSRİ daxilində başlayan münaqişəyə hazır olmadığından Azərbaycan televiziyası informasiya siyasətini qura bilmirdi. Separatçıların Xankəndində keçirdiyi fasiləsiz mitinqlər barədə qısa xəbəri Azərbaycan televiziyası yalnız 10 gündən sonra - hökumətin icazəsi ilə "Qarabağda yaranmış vəziyyət" adı altında efirə verdi. Bakıda başlayan kütləvi nümayişlər zamanı da meydandan birbaşa yayıma TV iki gün gec başladı. Bu isə AzTV rəhbərliyinin Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun iradəsinin əleyhinə çıxması nəticəsində mümkün oldu. Azərbaycan televiziyasının əməkdaşları da xalqla birlikdə Qorbaçovun addımlarına qarşı çıxaraq Azərbaycan Konstitusiyasına, beynəlxalq hüquq normalarına əməl edilməsini, erməni separatçılarının qanunsuz hərəkətlərinin qarşısının alınmasını tələb edirdi. Azərbaycan televiziyası ilə çıxış edən siyasi icmalçılar Kremlin Azərbaycana qarşı apardığı siyasətin mahiyyətini, respublikamızda yaranmış idarəolunmaz ictimai-siyasi vəziyyəti, xalqın haqlı tələblər irəli sürdüyünü cəsarətlə dilə gətirirdilər. Moskvadan gələn emissarların Azərbaycan televiziyası vasitəsilə Kremlin Bakıya qoşun yeritməyəcəyi və fövqəladə vəziyyət elan etməyəcəyi barədə vədlərinə baxmayaraq, 1990-cı il yanvarın 19-da saat 19:26-da Azərbaycan televiziyasının enerji bloku partladıldı. Azərbaycan televiziyasının yayımını yalnız yanvarın 28-də bərpa etmək mümkün oldu.

2004-cü ilin fevralından başlayaraq AzTV-nin proqramlarının Avropa ölkələrində daha keyfiyyətli yayımı təmin edildi. Bu məqsədlə Teleradio İstehsalat Birliyinin mütəxəssisləri teleqüllə kompleksində yeni rəqəmsal TV - Up-link stansiyasını quraşdırdılar. İndi Azərbaycan televiziyasının verilişləri həmin stansiyadan Avropaya "Hot Bird", Şimali Amerikaya "Galaxy 25", Asiyaya isə "Azerspace-1" peykləri vasitəsilə yayılır.

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA RADİO-TELEVİZİYA YAYIMI

2020-ci il dekabrın 31-dən etibarən, radio-televiziya yayımının təşkili Şuşa, Ağdam, Bərdə rayonları, eləcə də ətraf yaşayış məntəqələrində bərpa edilib. Şuşa Radio-Televiziya Yayım Stansiyasında rəqəmli TV yayım avadanlığı, anten-fider sistemi və 10 TV kanalın peykdən qəbulu üçün baş stansiya avadanlığı qurulub, istismara verilib. Artıq Kəlbəcər şəhərində 17 metrlik yeni metal qüllə istismara verilib. Bununla da Kəlbəcər şəhəri və rayonun ətraf 15 kəndində 8 TV və 1 radionun yayımı təmin olunub. Qubadlı Xanlıq Radio-Televiziya Yayım Stansiyasının mövcud 50 metrlik qülləsindən istifadə olunmaqla 8 TV və 2 radio proqramının Qubadlı şəhəri və Qubadlı rayonunun 12 kəndində (Əlibəyli, Qoturbulaq, Xocahan, Qapanlı, Muğanlı, Hal, Xanlıq, Hənzəli, Əfəndilər, Qəzyan, Saray, Yuxarı Mollu) yayımı təmin olunub. Bu və ya digər ərazilərdə də radio-televiziya yayımı bərpa edilib.

Bu gün Azərbaycan Televiziyası və radiosu yeni dövrünü yaşayır. Öz sözünü deyə bilən, öz fərqli dəsti -xətti ilə seçilən, ən güclü təbliğat sisteminə çevrilən radiomuz, televiziyamız illərdir ki, Azərbaycan tamaşaçıları ilə yol gəlir. Bu yol hələ neçə-neçə onillikləri əhatə edəcək, xalqın milli tarixi, gələcəyi, Azərbaycanın dinamik inkişafı, uğurları və beynəlxalq mövqeyi ilə bağlı bizə çox xəbərləri çatdıracaq.

***Zümrüd BAYRAMOVA***

# “Kənd təsərrüfatı iqtisadi dayanıqlığın və ərzaq təhlükəsizliyinin əsas dayağıdır"

*EKSPERT AÇIQLADI*



”Kənd təsərrüfatının inkişafı ölkə iqtisadiyyatının dayanıqlı şəkildə böyüməsində strateji əhəmiyyət daşıyan amildir. Bu sektor yalnız ərzaq təhlükəsizliyi baxımından deyil, həm də məşğulluğun artırılması, regionların sosial-iqtisadi inkişafı, ixrac potensialının gücləndirilməsi və makroiqtisadi sabitliyin qorunması üçün fundamental rol oynayır”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Asif İbrahimov deyib.



Onun sözlərinə görə, kənd təsərrüfatının inkişafı daxili ərzaq təminatını möhkəmləndirir və idxaldan asılılığı azaldır. Bu, xüsusilə qlobal tədarük zəncirlərində qeyri-müəyyənliyin artdığı, ərzaq qiymətlərinin dalğalandığı və logistika risklərinin yüksəldiyi hazırkı geosiyasi dövrdə xüsusi aktuallıq kəsb edir. Ölkənin öz istehsal gücü eyni zamanda strateji təhlükəsizlik elementidir: ”Kənd təsərrüfatı regionlarda məşğulluğun əsas mənbələrindən biridir. Bu sahəyə investisiyaların artması kənd əhalisinin gəlirlərini yüksəldir, miqrasiyanın qarşısını alır və şəhərlərlə kəndlər arasındakı sosial-iqtisadi fərqlərin azaldılmasına töhfə verir. Kənd yerlərinin inkişafı həmçinin yeni infrastrukturların - yollar, suvarma sistemləri, logistika mərkəzləri və emal müəssisələrinin yaradılmasını stimullaşdırır ki, bu da iqtisadi aktivliyi genişləndirir. Aqrar sektorun dəyər zənciri baxımından genişləndirilməsi, yəni məhsul istehsalından tutmuş emal və ixraca qədər tamagəlirli sistemin qurulması ölkənin ixrac potensialını artırır, valyuta axınlarını genişləndirir və qeyri-neft sektorunun payını yüksəldir. Bu isə iqtisadiyyatın diversifikasiyası baxımından həlledici addımdır. Müasir aqrar texnologiyaların tətbiqi - rəqəmsal idarəetmə, süni intellekt əsaslı suvarma sistemləri, dron monitorinqi, biomühəndislik və ekoloji təmiz istehsal metodları - məhsuldarlığı artırır, resursların səmərəli istifadəsini təmin edir və qlobal rəqabət gücünü yüksəldir. Kənd təsərrüfatının innovasiya ilə inteqrasiyası artıq ənənəvi deyil, yüksək texnoloji iqtisadi sahə kimi dəyərləndirilir.



Kənd təsərrüfatının inkişafı yalnız bir sahənin güclənməsi deyil, milli iqtisadiyyatın strukturunda tarazlığın yaranması, sosial rifahın artırılması və uzunmüddətli iqtisadi təhlükəsizliyin təmin olunması deməkdir. Bu sahənin prioritetləşdirilməsi ölkəni qlobal çağırışlara daha davamlı edir və iqtisadi suverenliyi möhkəmləndirir”.

***Ziya Hikmətoğlu***

# Texnologiya insanı azad edir, yoxsa əsir alır?

***Müasir dövrdə texnologiya həyatımızın hər sahəsinə sirayət edib. Səhər gözümüzü açanda telefonu əlimizə alır, gün ərzində sosial şəbəkələrdə vaxt keçirir, işimizi kompüterlə, asudə vaxtımızı isə ekran qarşısında tamamlayırıq.***



***Yusif Quliyev***

Texnologiya bizə sürət, rahatlıq və sonsuz imkanlar gətirib. Amma eyni zamanda sual yaranır: bu rahatlıq bizi azad edib, yoxsa yeni bir əsarətə salıb? Bir tərəfdən baxdıqda, texnologiya insanı azad edən ən güclü vasitələrdən biridir. O, biliyə çıxışı asanlaşdırır, məsafələri aradan qaldırır, işləri avtomatlaşdırır. Bir vaxtlar günlərlə görülən iş indi bir neçə dəqiqəyə tamamlanır. Hər bir insan öz fikrini internet vasitəsilə dünyaya çatdıra, istənilən ölkədə yaşayan insanla saniyələr içində əlaqə qura bilir. Bu, bəşəriyyətin tarix boyu arzuladığı azadlıq deyilmi zaman və məkan məhdudiyyətlərini aşmaq? Lakin digər tərəfdən, texnologiyanın gətirdiyi azadlıq çox vaxt aldadıcı görünür. İnsan artıq telefon bildirişlərinin, sosial media alqoritmlərinin və virtual ”bəyəni”lərin əsirinə çevrilib.

Biz texnologiyanı idarə etdiyimizi düşünürük, amma əslində o bizi idarə edir. Hər gün saatlarla ekran qarşısında qalır, real həyatdan uzaqlaşır, təbiətlə və öz daxili dünyamızla əlaqəni itiririk. Bəzən hətta ”offline” qalmaq bizə azadlıq kimi deyil, qorxu kimi görünür. Bu, əsarətin yeni formasıdır rəqəmsal asılılıq. Deməli, texnologiya nə tam azadlıq, nə də tam əsarətdir. O, bir vasitədir necə istifadə etdiyimizdən asılı olaraq ya bizi yüksəldir, ya da məhdudlaşdırır. Texnologiyanın azadlıq gətirməsi üçün insan ondan şüurlu şəkildə istifadə etməyi öyrənməlidir. Əks halda, hər yeni yenilik bizi bir addım da ”rəqəmsal qəfəsə” yaxınlaşdıracaq.

# Paşinyan Putinin “əllərini” İrəvandan kəsir...

## Mətləb Salahov: "Erməni baş nazirin hazırkı siyasəti Rusiyanın ənənəvi "erməni kartını" da sıradan çıxarıb"

“Hazırda Nikol Paşinyan siyasi baxımdan və hakimiyyət təhlükəsizliyi baxımdan özünü sərbəst hiss edir desəm yanılmaram. Çünki cəmi bir neçə ay öncə olduğu kimi erməni baş nazir artıq qapı-qapı gəzib siyasi dəstək axtarmır. Üstəlik, erməni cəmiyyətində də hazırkı hakimiyyət başçısını dəstəkləyən kütlənin sayı kifayət qədər yüksəkdir. N.Paşinyan Azərbaycanla münasibətləri düzəltdikcə, xüsusilə kommunikasiya xətlərinin tədricən açılması ilə Ermənistan ictimai rəyində daha çox rəğbət sahibi olmağa başlayıb. Azərbaycan vasitəsi ilə Qazaxıstan taxılının Ermənistana daşınması ilə rəsmi Bakının Ermənistan üçün kritik önəmini bütün erməni cəmiyyəti bir daha aydın şəkildə dərk etdi. Dərk etdi ki, Azərbaycanla inteqrasiya iqtisadi tənəzzül içində bolulan Ermənistan üçün hava və su qədər vacibdir. Bu proses isə sülh və inteqrasiya təbliğatı aparan N.Paşinyanın mövqelərini getdikcə möhkəmləndirir”.

Bu barədə SİA-ya şərhində Mətləb Salahov bildirib. O qeyd edib ki, hazırda N.Paşinyan Rusiyayönümlü qüvvələr də daxil olmaqla İrəvandakı revanşist ünsürləri tamamilə ictimai-siyasi səhnədən silməklə məşğuldur. ”Diqqət edin, artıq vəziyyət o həddədir ki, Rusiyanın Ermənistanda özünə rıçaq axtarmaq işi həddindən artıq çətinləşib. Daima Rusiyanın himayəsində olan bundan öncəki hakimiyyətlərin Ermənistanı talayıb sovurduqlarını, sosial fəlakət içində qoyub qaçdıqlarını erməni cəmiyyəti daha aydın dərk edir. Robert Koçaryan, Serj Sarkisyan, elə Levon Ter Petrosyan belə küçəyə çıxarmağa adam tapa bilmirlərsə və erməni ictimai rəyi bu fəlakətə görə Rusyanı günahkar elan edirsə, bu, o deməkdir ki, illərdir Moskvanın Ermənistan siyasətinə hesablanmış ”erməni kartı” artıq işə yaramır.



Rusiya hazırda Ermənistanda kütlənin etibarını qazanacaq populist siyasi fiqur axtarışındadır. Lakin erməni cəmiyyəti Ermənistanı ”quyunun dibindən” çıxarmaq üçün bölgədə inteqrasiya və sülh ritorikası ilə çıxış edən hazırkı baş naziri güclü şəkildə dəstəkləyir. Ermənilər artıq Rusiyanın əlabaxan vilayəti olmaq istəmirlər. Bu isə o deməkdir ki, N.Paşinyan ictimai rəy və siyasi müdaxilə mənasında Vladimir Putinin ”əllərini” İrəvandan kəsir”.

***Ayşən Vəli***

# Qadın və kişi psixologiyası - doğuşdan fərqlər, yoxsa sosial formalaşma?

ARAŞDIRMA

***İnsan psixikasını formalaşdıran amillər uzun illərdir elmi müzakirələrin əsas mövzusudur. Bu müzakirələrdən biri də qadın və kişi psixologiyası arasındakı fərqlərin mənşəyi ilə bağlıdır. Görəsən, qadın və kişi davranışlarındakı, emosional reaksiyalarındakı və düşüncə tərzlərindəki fərqlər bioloji mənşəlidirmi, yoxsa cəmiyyətin yaratdığı sosial rolların nəticəsidir?***

Əsrlər boyu patriarxal dəyərlər qadın və kişi davranışlarını "təbiətin qanunu" kimi təqdim edib. Lakin müasir psixologiya və neyroelm göstərir ki, insan beyni çevik və adaptiv quruluşa malikdir; yəni davranış və şəxsiyyətin formalaşmasında sosial mühitin, tərbiyənin və mədəniyyətin rolu bəzən biologiyadan daha güclü ola bilər. Bu baxımdan, "qadın belə düşünür", "kişi belə davranır" kimi qəliblər sadəcə təbiətin deyil, həm də cəmiyyətin diktə etdiyi psixoloji modellərdir.

SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Bioloji fərqlərin psixoloji təzahürləri

**1. Neyrobioloji fərqlər**

Elmi araşdırmalar göstərir ki, qadın və kişi beyinləri arasında müəyyən struktur fərqlər var:

Kişilərdə amigdala (emosional reaksiya mərkəzi) daha aktivdir, bu da stressə daha impulsiv reaksiya ilə nəticələnə bilər.

Qadınlarda isə korpus kallosum (beyin yarımkürələri arasındakı əlaqə) daha güclüdür, bu da emosional və məntiqi proseslərin paralel işlənməsini asanlaşdırır.

Bu fərqlər qadınların empatiya və kommunikasiya bacarıqlarında, kişilərin isə məkan oriyentasiyası və risk davranışlarında fərqli meyllər yaratdığı düşünülür.

2. Hormonların təsiri

Testosteron aqressiya, rəqabət və liderlik davranışları ilə əlaqələndirilir.

Estrogen və oksitosin qadınlarda empatiya, qayğı və emosional bağlanma ilə bağlıdır.

Lakin müasir psixologiya bu fərqləri mütləq və sabit hesab etmir - hormonal təsirlər sosial və mədəni mühit tərəfindən tənzimlənə bilir.

## Sosiallaşma və cəmiyyətin formalaşdırdığı fərqlər

1. Uşaqlıqdan başlayan "rol tərbiyəsi"

Cəmiyyət uşaqlara doğulduqları andan fərqli mesajlar verir:

Qız uşaqlarına "zərif ol", "emosiyalarını ifadə et" deyilir.

Oğlanlara isə "ağlama", "güclü ol", "hisslərini gizlət" mesajları verilir.

Bu proses "gender rolları" adlanır və zamanla psixoloji kimliyin formalaşmasına təsir göstərir.

2. Mədəniyyət və gözləntilər

Mədəni mühit qadın və kişidən fərqli davranış modelləri tələb edir.

Qərb cəmiyyətlərində qadınların liderlik rolu getdikcə güclənir.

Şərq və ənənəvi mədəniyyətlərdə isə emosional və sosial rollar daha çox qadınlara, rasional və qərarvermə rolları kişilərə aid edilir.

Bu fərqlər, əslində, psixoloji qabiliyyətlərin deyil, sosial imkanların nəticəsidir.

3. Media və stereotiplər

Filmlər, reklamlar və sosial şəbəkələr kişi və qadın obrazlarını müəyyən qəliblərdə təqdim edir. "Qadın zərifdir, kişi isə güclü" kimi mesajlar fərdləri şüuraltı şəkildə bu rollara uyğunlaşdırır.

## Müasir elmin baxışı: Biologiya və sosial mühit bir-birini tamamlayır

Bugünkü elmi yanaşma "ya o, ya bu" prinsipindən uzaqdır.

Psixoloqlar və neyroelm mütəxəssisləri bildirirlər ki:

Bioloji fərqlər başlanğıc potensial yaradır,

Sosial mühit isə bu potensialın istiqamətini və dərəcəsini müəyyənləşdirir.

Məsələn, qadınlarda empatiya bacarığı doğuşdan güclü ola bilər, lakin bu xüsusiyyətin inkişafı cəmiyyətin onu necə qiymətləndirməsindən asılıdır. Əgər empatiya zəiflik kimi qəbul edilirsə, qadın da zamanla bu keyfiyyəti gizlətməyə meyllənəcək.

## Azərbaycanda qadın və kişi psixologiyasına baxış

Azərbaycan cəmiyyətində gender rolları tarixi-mədəni kontekstə əsaslanır.

Qadınlardan ailəyə bağlılıq, fədakarlıq, emosional sabitlik gözlənilir. Kişilər isə ailənin maddi dayağı və qərarverici obrazında təsəvvür olunur. Lakin son illər təhsil səviyyəsinin artması, qadınların ictimai həyatda daha fəal iştirak etməsi bu psixoloji modelləri dəyişməkdədir. Gənc nəsil artıq "emosional kişilər"i və "rasional qadınlar"ı təbii hal kimi qəbul edir. Bu da sosial formalaşmanın psixologiyaya təsirini açıq şəkildə göstərir.

Qadın və kişi psixologiyası arasındakı fərqlər nə tam bioloji, nə də tam sosial mənbəyə söykənir. Əslində bu, ikili təsirin və qarşılıqlı adaptasiyanın nəticəsidir.

Biologiya başlanğıc nöqtədirsə, sosial mühit onun istiqamətini müəyyənləşdirir. Əgər cəmiyyət fərdləri cinsinə görə deyil, insan kimi dəyərləndirməyi öyrənsə, həm qadın, həm də kişi öz potensialını azad şəkildə ifadə edə bilər.

***Ayşən Vəli***

# "Gürcüstanın demokratik gələcəyi kritik seçim mərhələsinə daxil olub"

*POLİTOLOQ MÜNASİBƏT BİLDİRDİ*





"Gürcüstanda hakim partiyanın üç əsas müxalifət qüvvəsinin fəaliyyətinin qadağan edilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət etməsi ölkənin demokratik inkişaf trayektoriyasında həlledici mərhələdir. Bu addım təkcə daxili siyasi nizamın dəyişdirilməsi cəhdi deyil, həm də Gürcüstanın beynəlxalq mövqeyi və geosiyasi orientasiyası baxımından ciddi siqnaldır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.

Onun sözlərinə görə, söhbət siyasi plüralizmin gələcəyindən gedir. Demokratik sistemin əsas sütunu olan rəqabətli siyasi mühitin zəiflədilməsi həm siyasi institutlara, həm də seçici iradəsinin təmsil olunmasına fundamental zərbə vurur. Bu cür təşəbbüslər isə cəmiyyət daxilində qütbləşməni dərinləşdirə, radikallaşma meyillərini gücləndirə və sosial-siyasi sabitliyə mənfi təsir göstərə bilər: "Gürcüstanın Qərb inteqrasiya kursu ciddi suallar altına düşür. Avropa İttifaqı və ABŞ-ın Gürcüstanla münasibətlərində demokratik prinsiplər, hüququn aliliyi və siyasi rəqabətin qorunması açar məqamlardır. Bu kontekstdə müxalifətin sistematik şəkildə zəiflədilməsi Qərbin Gürcüstana dair siyasi və iqtisadi dəstəyində azalma riskini artırır və Tbilisinin Avro-Atlantik proseslərdə sürət itirməsinə səbəb ola bilər. Regional geosiyasi balans məsələsidir.

Gürcüstanın demokratik dəyərlərdən uzaqlaşması ölkənin Qərb strukturlarından nisbətən məsafələşməsi, buna paralel olaraq Rusiya təsir xəttinə yaxınlaşması istiqamətində interpretasiya oluna bilər. Bu isə Cənubi Qafqazda güc balansında yeni dinamikalar yarada, həm Gürcüstanın daxili təhlükəsizlik arxitekturasını, həm də enerji-nəqliyyat layihələrinin gələcəyini təsirləndirə bilər. Hakim partiyanın bu addımı təkcə hüquqi və siyasi proses deyil, strateji seçim mahiyyəti daşıyır. Gürcüstan ya demokratik institutların gücləndirilməsi xəttinə sadiq qalaraq Qərblə inteqrasiyasını dərinləşdirəcək, ya da siyasi monolitliyə üstünlük verərək regional güc dinamikalarının dəyişməsi fonunda fərqli geosiyasi orbitə sürüşəcək. Hazırkı mərhələ ölkənin siyasi gələcəyinin müəyyənləşməsi baxımından kritik dövrdür".

***Ziya Hikmətoğlu***



# Müstəqillik tariximizin 44 günü!




Dünya tarxinin ən qədim dövlətlərindən olan Azərbaycan bu günə qədər tarixçilər, arxeoloqlar, araşdırmaçılar tərəfindən tədqiq olunur, öyrənilir. Gəlinən qənaət ondan ibarətdir ki, ilk insan məskənlərindən (1,5 milyon il bundan əvvəl bu ərazilərdə insanların yaşadığı sübuta yetirilib) və dövlətlərindən olan Azərbaycan dünya sivilizasiyasına mühüm töhfələr verən dövlətlərdəndir. Hələ antik dövrdə qədim yunan tarixçiləri Ptolemey, Arrian, Herodot, Strabon, Ammian Marsellin, Tassit və başqaları əsərlərində qədim Azərbaycanın əhalisi, əhalinin məşğuliyyəti, etnik tərkibi, burada baş verən siyasi hadisələr barədə geniş və ətraflı məlumatlar vermişlər. Qədim dövrdə Azərbaycan ərazisində mövcud olmuş Aratta, Lullubi, Kuti dövlət qurumlarının, eləcə də Manna, Atropatena, Albaniya kimi qüdrətli dövlətlərin dünyanın ilk türk dilli dövlətlərindən olmuş və Dəclə, Fərat çaylarının kəsişməsində yerləşmiş Şumerlərlə, eləcə də sonradan yaranan digər dövlətlərlə müəyyən sahələr üzrə geniş əlaqələri, əməkdaşlıq münasibətləri olub. Bütün bu kimi faktlar onu təsdiq edir ki, Azərbaycanın qədim dövlətçilik tarxi mövcuddur. Bu tarxi dünyanın istənilən elm mərkəzləri, təhsil ocaqları, tarixçilər, çoğrafiyaçıları, tədqitaçıları da təsdiq edir. Ona görə də, bu gün dünya xalqları Azərbaycanın dününinə hörmət, bu gününə rəğbət mövqeyindən çıxış edərək Azərbaycan dövləti və xalqı ilə hərtərəfli münasibətlər qurmağa can atır. Azərbaycanın bugünkü nüfuzunun, hörmətinin səbəblərindən biri də 44 günlük Vətən Müharibəsində təpədən dırnağa qədər hər cür dağıdıcı silah, hərbi texnika ilə silahlanmış erməni terror maşınını məhv edərək 30 il işğal altında qalmış torpaqlarını azad etməsidir.

2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsinin ilk saatlarında erməni ordusunun ön mövqeləri sıradan çıxarıldı. ABŞ-ın Müharibələri Araşdırma Mərkəzinin yaydığı yazılı mətnində qeyd edilir ki, Azərbaycan ordusu 45 dəqiqə ərzində Qarabağda üstünlyü tam şəkildə ələ aldı, 2 saat ərzində raket kompleksləri, hərəkət edən texnikasının 60 faizi sıradan çıxarılmışdı. ABŞ-ın Müharibələri Araşdıran Mərkəzinin məlumatında o da qeyd edilir ki, Azərbaycanın həyata keçirdiyi əməliyyatlar müasir dünya hərb tarixində misli görünməmiş unikal əməliyyat idi. Aparıcı Qərb mətbu orqanlarında, habelə ABŞ-ın Milli Müharibə Kollecinin (National War College) və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, Azərbaycan Ordusunun qarşısında hətta dünyanın aparıcı ölkəsi olsaydı, belə onun da heç bir şansı olmayacaqdı.

## ”Dəmir yumruq” əməliyyatı Ermənistanı ağ bayraq qaldırmağa məcbur etdi

”Dəmir yumruq” əməliyyatının ilk saatlarından cəbhə xəttindən sevindirici xəbərlər gəlməyə başladı. 44 gün ərzində hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, işğala son qoyulsun və tarixi ədalət zəfər çalsın. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı ?ın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir ?rataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olundu Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən üçtərəfli Bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. Həmin Bəyanata uyğun olaraq, Ermənistan noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını Azərbaycan Silahlı Qüvvələrinə təhvil verdi. 2022-ci ilin avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü.

Təbii ki, qələbənin əsas təminatçısı xalq-ordu-hakimiyyət birliyidir. Dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı Prezident İlham Əliyevin Sərkərdəlik məharətini, diplomatik bacarığını, siyasi qabiliyyətini yüksək qiymətləndirib, Onun bütün fəaliyyətini dəstəkləyirdi. Prezident İlham Əliyev tərəfindən İkinci Qarabağ müharibəsi dövründə verilmiş müsahibələrin hər biri Azərbaycanın diplomatik uğurudur - beynəlxalq təşkilatlar vasitəsilə ölkəmizə təzyiqlər cəhdinin qarşısı müvəffəqiyyətlə alınmışdır. Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verdi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı. İnformasiya savaşının əsas konturlarını təşkil edən bu müsahibələr mediamızın fəaliyyətinə istiqamət verdi. Müzəffər Ali Baş Komandanın müharibə ilə bağlı müsahibələri XXI əsr üçün yeni üslub, yeni model nitq strategiyası hesab edilə bilər. Müsahibələr ardıcıl, dünyanın ən müxtəlif ölkələrinin, müxtəlif kanalları vasitəsi ilə aparılırdı.

Müsahibələri real mübarizə və silah üsuluna çevirən Azərbaycan Prezidenti bu müharibədə də qalib gəldi. Həmin nitqlərdə gerçəklikdən doğan konkretlik, qətiyyət, iradə əsaslı şəkildə yer alırdı. Müzəffər Ali Baş Komandan verdiyi müsahibələrlə münaqişə ilə bağlı dünyanın fikrini dəyişdirməyə müvəffəq oldu. Ürəkdən səslənən, xalqın hisslərini əks etdirən Prezident İlham Əliyevin hər bir sözü, hər bir fikri xalqın hafizəsinə əbədi həkk oldu, dillər əzbərinə çevrildi. Müharibə dövründə Prezident İlham Əliyev tərəfindən səsləndirilən nitqlər öz emosionallığı ilə fərqlənirdi. Dövlət başçısının gələcəyə ümid dolu sözləri insanları itkilər qarşısında sönməməyə, əksinə, qürurla durmağa ruhlandırdı. Vətəndaşlar müharibə dövründə Prezidentin simasında artıq ölkəni idarə edən rəsmi şəxslə bərabər, doğma insan, xalqının yenilməz övladını görürdülər.

## Əsgər və zabitlərimiz qəhrəmanlıqları ilə yeni tarix yazdılar

Döyüşən ordunun əsgər və zabitlərimizin qəhrəmanlıqları Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək dəyərləndirildi. Onlar Prezident İlham Əliyevin Fərmanı ilə ”Zəfər” və ”Qarabağ” ordenləri, həmçinin ”Vətən Müharibəsi Qəhrəmanı”, ”Cəsur döyüşçü”, ”Döyüşdə fərqlənməyə görə”, ”Suqovuşanın azad olunmasına görə”, ”Cəbrayılın azad olunmasına görə”, ”Xocavəndin azad olunmasına görə”, ”Füzulinin azad olunmasına görə”, ”Zəngilanın azad olunmasına görə”, ”Qubadlının azad olunmasına görə”, ”Şuşanın azad olunmasına görə”, ”Kəlbəcərin azad olunmasına görə”, ”Ağdamın azad olunmasına görə”, ”Laçının azad olunmasına görə”, ”Vətən müharibəsi iştirakçısı” və ”Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə” medalları ilə təltif olundular.

Prezident İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə Zəfər Günü təsis edilmişdir Sərəncama əsasən hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir. Azərbaycan əsgərinin İkinci Qarabağ müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin təbliği, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə Bakıda Vətən Müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı. 2024-cü il noyabrın 8-də kompleksdə Zəfər parkının açılış mərasimi keçirilib. Paytaxtın 8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi 10 hektara yaxındır. Parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib. Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılıb. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirir. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılıb. Yaddaş bağçasının ətrafında istirahət guşələri salınıb. Parkın sonunda Azadlıq Bayrağı Meydanı inşa olunub.

Torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə parkın ərazisində Zəfər muzeyi də yaradılır. Muzeydə Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini nümayiş etdirəcək. Muzeydə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, Ümummilli Lider Heydər Əliyevin sovet dövründə və müstəqillik illərində bölgənin inkişafı və ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində həyata keçirdiyi siyasətə dair materiallar əks olunacaq. Həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpası, Vətən müharibəsində Ordumuzun göstərdiyi qəhrəmanlıq xüsusi vurğulanacaq. Muzey ekspozisiyaları müxtəlif interaktiv təqdimatlarla müşayiət olunaraq ziyarətçilərə əyani və təsirli şəkildə təqdim ediləcək.Muzeyin konsepsiyası, burada yaradılacaq bölmələr həmçinin 44 günlük Vətən müharibəsindəki bəzi strateji əhəmiyyətli hərbi əməliyyatların interaktiv təqdimatı ziyarətçilərə Qarabağın tarixi, münaqişənin ilk günündən başlayaraq zəfərlə nəticələnən şanlı yol barədə dolğun təsəvvür formalaşdıracaq və bu tarixi prosesləri yenidən yaşamağa imkan verəcək. Muzeydə Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri, bölgənin sürətli dirçəlişini əks etdirən xüsusi bölmə də təqdim olunacaq.

Müharibə qəhrəmanlarının və tarixinin əbədiləşdirilməsi üçün Prezident İlham Əliyev tərəfindən ardıcıl bir sıra fərman və sərəncamlar imzalanmışdır. Sərəncamlara uyğun olaraq 2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında Zəfər paradı keçirilmiş, 2021-ci il 12 aprel tarixində Hərbi Qənimətlər Parkının açılışı edilmiş, 17 min 267 ailəni sevindirən Zəfər Günü münasibətilə amnistiya elan edilmiş, Prezidentin 2024-cü il 19 sentyabr tarixli sərəncamına uyğun olaraq hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilir.

Bəli, Azərbaycan 44 gün ərzin də heç bir dövlətin ələdə edə bilmədiyi tarixi qələbəyə imza atdı. Elə bir zəfərə, qələbəyə ki, yüz illər, min illər keçsə də hərb tarixində qalacaq və öyrəniləcək. Təbii ki, bu qələbənin əldə edilməsinə görə, şəhidlərimizə, qazilərimizə borcluyuq, ordunu qələbəyə aparan, xalqa qürur yaşadan Prezidentimiz, Ali Baş Komandan, Fateh Sərkərdə İlham Əliyevə minnətdarıq.

***İLHAM ƏLİYEV***

# Paşinyan kilsə ilə necə düşmən oldu?

***Erməni Apostol Kilsəsi (EAK) ilə baş nazir Nikol Paşinyan arasında qarşıdurma qaynama həddinə çatıb. Noyabrın 2-də katolikos II Qareqinin qardaşı və qardaşı oğlunun həbs edildiyi açıqlanıb. Baş nazir bir müddət əvvəl Ermənistanın ruhani liderini rüsvayçı hesab etdiyini bildirmişdi. Baş nazir bu barədə parlamentdə açıqlama verib. Paşinyan EAK-ın inzibati mərkəzinin yerləşdiyi qədim Eçmiədzin şəhərini daha lütf yeri hesab etmədiyini açıqlayıb. O, Hovhannavank monastırından mənəvi dəstək almağa üstünlük verir. Ermənilərin yazdığı tarixə görə, müqəddəs ilahiyyatçı İohanna həsr olunmuş monastır erkən orta əsrlərdə qurulub, lakin baş naziri cəlb edən monastırın qədimliyi deyil. Monastırın abbatı Aram Asatryan kilsə-siyasi intriqada mühüm dişliyə çevrilib.***





Oktyabrın 21-də II Qareqin Asatryanın vəzifələrini əlindən alıb, lakin abbat qərarı tanımaqdan imtina edib. Asatryanın cəzalandırılmasına səbəb onun fəaliyyəti olub. O, açıq şəkildə bəyan edib ki, monastırın tabe olduğu Araqatsotn yeparxiyasının rəhbərliyi onu 2021-ci ildə Paşinyana qarşı siyasi mitinqlərdə iştirak etməyə məcbur edib. Bu bəyanat ötən ilin may ayından Ermənistan Apostol Kilsəsinin rəhbərliyi ilə qızğın qarşıdurmanın ortasında olan Paşinyan üçün göydəndüşmə olub. Asatryanın ifadəsi əsasında İrəvan məhkəməsi oktyabrın 16-da Erməni Apostol Kilsəsinin Araqatsotn yeparxiyasının rəhbəri yepiskop Mkrtiç Proşyanı və daha 13 ruhani həbs edib.






Paşinyan oktyabrın 22-də parlamentdə çıxışı zamanı Asatryanın məsələsinə münasibət bildirib: "Aram atanın bəyanata gəlincə, sərxoş olan kimsə kiminsə dini vəzifələrini məhdudlaşdıra bilməz, Ktriç Nersisyan isə subaylıq andını pozduğuna görə rüsvay edilib". Artıq bir müddətdir ki, o, mülki adı olan Ktriç Nersisyandan istifadə edərək, katolikosu kilsə adı ilə çağırmaqdan imtina edir. "O, keşişi necə təcrid edə bilər?", baş nazir sözünə davam edib. "O, ilk növbədə özü barədə məlumat versə yaxşıdır. Niyə arvadı, övladı var və sair izah etsin. Cəmiyyətin bir çox suallarına cavab verməlidir". "Erməni Apostol Kilsəsinin sadiq davamçısı kimi mən bu tribunadan bəyan edirəm ki, Ktriç Nersisyan çoxdan devrilib, o, sadəcə olaraq, bir qrup oxşar devrilmiş şəxslərlə birlikdə Eçmiədzini qəsb etmiş bir adamdır", - Paşinyan yekunlaşdırıb. Onun Qareqinə qarşı ittihamları katolikosun subaylıq da daxil olmaqla monastır vədlərini pozduğu iddiasına əsaslanır. Siyasətçi hələ də iddiasını dəstəkləmək üçün sübut təqdim etməyib, baxmayaraq ki, ilk ittihamlar may ayında geri qaytarılıb.

Paşinyan Hovhannavank monastırını alternativ kilsə həyatı mərkəzinə çevirməyə çalışır. Oktyabrın 26-da o, həmfikir şəxslərlə (müdafiə naziri Suren Papikyan, hökumətin digər üzvləri və polis rəisi Aram Qazaryan) rəsmi olaraq rütbəsi kəsilmiş Asatryanın qeyd etdiyi mərasimdə iştirak edib. Liturgiya müxalifət fəalı Hayk Doruntsun katolikos tərəfindən qadağan edilmiş keşişin kilsədə xidmət etmək hüququna malik olmadığı barədə qışqırması ilə kəsilib. Narahatlıq edəni ağzı bağlı halda kilsədən çıxarıblar.

Eçmiədzin bəyan edib ki, Hovhannavank monastırında "erməni hakimiyyətinin himayəsi altında" səlahiyyətsiz keşiş tərəfindən keçirilən liturgiyanın heç bir mənəvi əsası yoxdur. Bundan əlavə, monastırın təhqir edildiyi iddia edildi. Erməni Apostol Kilsəsi bəyan edib ki, "Hovhannavank yenidən müqəddəsləşdirilməlidir". Lakin bazar günü, noyabrın 2-də Paşinyan və silahdaşları yenidən Asatryanın qeyd etdiyi xidmətə toplaşıblar. Bir gün əvvəl baş nazir sosial şəbəkədə qısa videomüraciət yayaraq, Hovhannavankdakı xidmətin "Eçmiədzini çirkabın pəncəsində saxlayanlardan azad etmənin yolu" olacağını bəyan etdi.

Ölkədə hamı başa düşür ki, ruhanilərə qarşı hücumların əsas səbəbi siyasətdir. Erməni Apostol Kilsəsinin (EAK) rəhbərliyinin mövcud hakimiyyətin əleyhdarlarının tərəfini tutması hakimiyyətə din xadimlərini gözdən salmaq və cəzalandırmaq üçün bəhanə verir. Hökumətin fikrincə, yepiskoplar nəinki ruhanilərin siyasi müxalifət fəaliyyətini təşviq edir, həm də guya öz tabeliyində olan keşişləri mitinqlərdə iştirak etməyə məcbur edirlər.

Asatryanın bəyanatından əlavə, kilsə rəhbərliyinə böhtan atmaqda ittiham olunan keşiş Aqan Yernjakyanın da şikayəti var. Bu işlə bağlı Ermənistan İstintaq Komitəsi Eçmiədzin Xarici Əlaqələr və Protokol Departamentinin direktoru arxiyepiskop Natan Hovhannisyanı dindirib.

Yernjakyan 2023-cü ilin oktyabrına aid olduğu güman edilən dərc olunmuş yazısında katolikoslara qarşı ittihamlar irəli sürür. O, iddia edir ki, sonuncu onu və anasını baş nazir Paşinyana qarşı etiraz aksiyalarında iştirak etməyə çağırıb. İstintaq Komitəsi faktla bağlı Ermənistan Cinayət Məcəlləsinin 236-cı maddəsinin 3-cü hissəsi (müşavirənin keçirilməsinə və ya onun keçirilməsinə mane olma və ya məcbur etmə, habelə rəsmi və ya vəzifə səlahiyyətlərindən istifadə etməklə iclasda iştirak etməyə və ya ondan imtina etməyə maddi həvəsləndirmə və ya onlardan irəli gələn təsir) cinayət işi açıb.

Erməni Apostol Kilsəsinin rəhbərliyinin əleyhdarları heç də həmişə qanuni vasitələrə əl atmırlar. Naməlum şəxslər internetdə Eçmiədzin kanserinin rəhbəri arxiyepiskop Arşak Xaçatryana aid ədəbsiz videolar yayıblar. Arxiyepiskop şəxsi toxunulmazlıq hüququnun pozulması ilə bağlı İstintaq Komitəsinə şikayət edib. KİV-lər İstintaq Komitəsinin mətbuat xidmətinə istinadən xəbər verir ki, qurum şikayətə baxmağa başlayıb.

Yerli media hesab edir ki, hakimiyyət Eçmiədzində kanseri sıxışdırır. Müxalifət mətbuatı hesab edir ki, bütün bunlar bir araya gəlsə, onlara katolikosun iqamətgahında axtarış aparmağa, hətta bəlkə də erməni apostol kilsəsinin ruhani liderini həbs etməyə imkan verəcək.

Artıq üç iyerarx həbs olunub. Proşyandan başqa, arxiyepiskoplar Baqrat Qalstanyan və Mikael Ajapaxyan da həbsdədir. İyun ayında Ermənistan hakimiyyəti dövlət çevrilişinə cəhdin qarşısını aldığını elan edib. Polis "Müqəddəs mübarizə" hərəkatının bir neçə iştirakçısını, o cümlədən ruhaniləri həbs edib.

İlk olaraq Ajapaxyan mühakimə olunub. Oktyabrın 3-də İrəvan məhkəməsi onu hökumətin devrilməsinə çağırışda ittiham edərək iki il müddətinə azadlıqdan məhrum edib. Amma bu da hakimiyyət üçün kifayət etmədi. Oktyabrın 21-də Ermənistan Prokurorluğu birinci instansiya məhkəməsinin qərarından apellyasiya şikayəti verib. İerarxın hüquq qrupunun dediyinə görə, prokurorlar əlavə altı aylıq həbs tələb edir. Azərbaycanla sərhədin demarkasiyası cəhdləri ilə başlayan siyasi mübarizənin bu raundunda Paşinyana açıq şəkildə qarşı çıxan ilk kilsə xadimi olmasına baxmayaraq, "Müqəddəs mübarizə"nin lideri arxiyepiskop Qalstanyanın məhkəməsi hələ də davam edir.

Paşinyan cinayət təqibindən başqa, əsasən müxalifətin tərəfində olan kilsəyə qarşı mübarizənin başqa üsullarına da əl atır. O, əvvəllər katolikosun seçilməsi prosedurunun dəyişdirilməsini və bu prosesdə dövlətin həlledici rolunun təsbit edilməsini təklif edib. Oktyabrın 22-də parlamentdə çıxışı zamanı baş nazir maddi həvəsləndirmənin tətiğini çəkib. "Yeri gəlmişkən, diqqətinizi cəlb etmək istədiyim bir detal var və düşünürəm ki, bu, mənəvi həyatın bərpası üçün gündəmimizin sahələrindən birinə çevrilə bilər. Səhv etmirəmsə, Hovhannavank da bir çox digər memarlıq abidələri kimi Ermənistan hökumətinə məxsusdur və bir sıra kilsələr erməni apostol kilsəsinin mülkiyyətinə təmənnasız olaraq verilib". Bu mülklər arasında Hovhannavank Monastırı da var. Bundan əvvəl Ermənistanın baş naziri bəyan etmişdi ki, kilsələrdə zibil və digər arzuolunmaz əşyalar getdikcə daha çox saxlanılır və onları "şkaf"a çevirir.

Təbii ki, hökumətin Erməni Apostol Kilsəsini öz siyasi maraqlarına tabe etmək üsulları kilsə ilə dövlətin ayrılması prinsipinə tam uyğun gəlmir. Hakimiyyətdə olanlar kilsənin işlərinə qarışmamalıdırlar. Ancaq Paşinyan özünü dindar adlandırmaqla və bu əsasda din xadimlərindən kilsə qanunlarına uyğun davranışlarına görə hesab verməlirini tələb etməklə məhz buna nail olmağa çalışır. Hər kəsə aydındır ki, Paşinyanın səlahiyyətləri onun adi dindar kimi hüquqları ilə deyil, siyasi və inzibati statusu ilə müəyyən edilir.

Digər tərəfdən, kilsə də müstəqil ictimai qurum olmaqdan çıxdığı xətti keçdi. Hakimiyyət tərəfdarları din xadimlərini siyasi qərəzli olmaqda və müxalifətin tərəfində siyasi səhnəyə çıxmaqda ittiham edirlər. Erməni Apostol Kilsəsinin liderlərinin öz rəsmi mövqelərindən istifadə edərək etiraz aksiyasına məcbur etmələri sübuta yetirilərsə, bu, Paşinyanın cəzalandırılması üçün qanuni əsas yarada bilər. Axı indiki siyasi mübarizə Ermənistanın bir dövlət kimi sağ qalmasından başqa bir şey deyil və baş nazir anın vacibliyini əsas gətirərək, cübbəli müxalifətçilərin "vətən xaini" kimi cəzalandırılmasını tələb edir.

Lakin etiraf etmək lazımdır ki, Erməni Apostol Kilsəsinin bütün iyerarxiyası baş nazirə qarşıdır, onun tərəfini isə yalnız bir neçə narazı din xadimləri və Hovhannavank monastırı kimi xırda sədaqətli ciblər tutur. Ermənistandakı milli kilsə milli kimliyin əsas qüvvəsidir. Çoxları hətta kilsənin dövlət və millətlə eyniləşdirilməsini istərdi. Lakin bu, tamamilə doğru deyil. Eçmiədzin nə qədər etiraz etsə də, dindarları eyni erməni xalqının bir hissəsi olan başqa konfessiyalar da var. Ölkədə Roma ilə ittifaqı qəbul etmiş ermənilərin icmaları, protestant icmaları da var.

Nikol Paşinyan ölkəsi ilə dünya katoliklərinin mənəvi mərkəzi arasında əlaqələrin vacibliyini nümayiş etdirdi. Oktyabrın 20-də o, Vatikanda olub, burada Papa XIV Leo ilə tamaşaçıları qəbul edib. "Tərəflər Müqəddəs Taxt-Tac ilə çoxdankı xristian ənənələrinə malik ölkə olan Ermənistan arasında yaxşı münasibətləri qeyd ediblər. Respublikada katolik kilsəsinin həyatının bir sıra aspektləri müzakirə edilib", - Vatikanın mətbuat xidmətinin bəyanatında deyilir.

**V.VƏLİYEV**

# Şərqin ilk radiosu: Azərbaycanın 99 yaşlı Səs məbədi

## 6 noyabr Azərbaycanda radionun yaranması günü və Teleradio işçilərinin peşə bayramıdır

“Danışan qutu”nun kəşfi insanlığın yeni eraya qədəm qoymasına səbəb oldu. Artıq uzaq məsafədən danışılanı eşitmək, xəbərlər almaq, əlaqə saxlamaq mümkün oldu. Radionun yaradıcısı rus mühəndisi Aleksandr Popov 1895-ci ildə elektromaqnit dalğalarını kəşf etmiş və onun ixtirası dərhal təcrübədə sınaqdan keçirilmişdi. Radiotexnikanın inkişafından sonra dünyanın siyasi mərkəzlərində bir-birinin ardınca radiostansiyalar fəaliyyətə başladı. 1922-ci ildə Moskvada Sovet İttifaqının ilk radiostansiyası efirə çıxdı. Bundan cəmi 4 il sonra isə Bakıda bütün müsəlman şərqinin ilk radiosu yayıma başladı.

### Danışır Bakı stansiyası

1926-cı il noyabrın 5-də "Bakinskiy raboçi" qəzeti oxucularına xəbər verirdi ki, paytaxtın bütün meydanlarında və klublarda səsucaldan qoyulub və sabah Bakıda radiostansiya işə başlayacaq. Noyabrın 6-da artıq SSRİ-nin ən böyük şəhərlərindən birinə çevrilmiş Bakının iri küçə və meydanlarında quraşdırılmış radiocihazlar xışıldayaraq dilə gəldi. Azərbaycan və rus dillərində ”Danışır Bakı stansiyası!” sözləri eşidildi. Bununla da Azərbaycan mətbuatında, mədəniyyətində və texnologiyasında yeni bir eranın əsası qoyuldu.

İlk verilişlərin hazırlanmasında Azərbaycan ədəbiyyatı və incəsənətinin görkəmli xadimləri fəal iştirak edirdilər. Bədii və musiqili verilişlərin müəllifləri Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun, Hüseynqulu Sarabski, Bülbül, Mustafa Mərdanov və başqaları idi.

Radionun ilk azərbaycanlı kişi diktoru Azərbaycan Politexnik Institutunun tələbəsi İsmayıl Əlibəyov, ilk azərbaycanlı qadın diktoru isə Azərbaycan Dövlət Universitetinin hüquq-iqtisad fakültəsinin tələbəsi Raya Imanzadə olurlar.



Sonrakı dövrdə Ənvər Həsənov, Hüseyn Natiq (Böyük Vətən müharibəsində həlak olmuşdur), Səməd Səmədov, Əsgər Mövsümzadə, Leyla Terequlova, Soltan Nəcəfov, Mirvarid Dilbazi, Hüseyn Qafarlı, Rafiq Ağayev, Məryəm Xudaverdiyeva, Həyat Musayeva, Yelena Orbeliani, Nina Petrova, Fatma Cabbarova, Züleyxa Hacıyeva, Gültəkin Cabbarlı, Aydın Qaradağlı, Nizami Məmmədov, Sabutay Quliyev, Ramiz Mustafayev kimi ustad diktorlar yetişdilər.

1929-cu ilin oktyabrında məşhur bəstəkar Müslüm Maqomayev Bakı radiosunun musiqi rəhbəri təyin olundu. Azərbaycan radiosunun verilişləri onun bəstələdiyi ”RV-8” radio marşı ilə açılırdı.

1932-ci ildə Müslim Maqomayev Üzeyir Hacıbəyovla birlikdə Radio Komitəsində ilk notlu Şərq alətləri orkestrinin yaradılmasına nail oldu.

Görkəmli nasir və şairlərimizin, bəstəkarlarımızın sənət əsərlərinin radiodan səsləndirilməsi ədəbi dilin inkişaf etməsinə, milli mədəniyyət və ədəbiyyatımızın təbliğinə xidmət edirdi.

1931-ci ildə Azərbaycan radiosunda Mustafa Mərdanovun rejissorluq etdiyi ”Radioteatr” yaradıldı. Həmin ilin dekabrında Hüseyn Cavidin ”Şeyx Sənan” pyesi ilk dəfə radioda səsləndirildi. Daha sonra A.S.Puşkinin ”Boris Qodunov”, C.Məmmədquluzadənin ”Ölülər”, C.Cabbarlının ”Sevil”, Nərimanovun ”Bahadır və Sona”, V.Şekspirin ”Hamlet”, M.F.Axundovun ”Hacı Qara”, Ə.Haqverdiyevin ”Dağılan tifaq” pyesləri dinləyicilərə təqdim edildi. İlk radio tamaşaları birbaşa efirə çıxarılırdı. Azərbaycan teatr sənətinin və ədəbiyyatının radioya uyğunlaşdırılması böyük kütlələrin daha çox ədəbi əsərlərlə tanışlığına səbəb oldu. Radiotamaşalar, radiohekayələr, radioromanlar dinləyicilərin maraqla gözlədiyi verilişlər idi.

### Bakıdan dünyaya bulaq kimi axan səs dalğaları

1950-ci ildə türk və fars redaksiyalarının əsasında Xarici verilişlər baş redaksiyası yaradıldı. Sonralar 8 xarici dildə proqramlar yayımlanmağa başladı.

1964-cü il oktyabrın 15-də Azərbaycan radiosunun 2-ci kanalı- ”Araz” xəbərlər və musiqi proqramı ilk dəfə efirə çıxdı. ”Araz” radiosunun yaranmasında və fəaliyyətində Teymur Əliyev, Ənvər Əlibəyli, Sabir Axundov, Soltan Nəcəfov, Kamil Məmmədov, Hacı Hacıyev, Aydın Qaradağlı, Valid Sənani, Yalçın Əlizadə, Ilyas Adıgözəlov, Hidayət Səfərli və başqaları böyük rol oynadılar. Təəssüf ki, 1998-ci ildə ”Araz” radiokanalı bağlandı. Hazırda bu adda başqa bir radio fəaliyyət göstərir.



Azərbaycan Radiosunun ”Sabahınız xeyir”, ”Axşam görüşləri”, ”Bulaq”, ”Vətən”, ”Natəvan” qızlar klubu, ”Lirika dəftərindən”, ”Muğam saatı”, ”Arzu” musiqi poçtu, ”Yazıçı və zaman”, ”Mahnı şəhəri gəzir”, ”Teatr mikrofon qarşısında”, ”Ana dili”, ”Körpü”, ”Ovqat”, ”Elin sazı, elin sözü”, ”Açıq-aşkar”, ”Xudafərin”, ”Sözün düzü”, ”Baxış bucağı”, ”Dünya”, ”Pillə”, ”Çevrə”, ”Radio-atmaca”, ”Molla Nəsrəddin”, ”Yol”, ”Yuva”, ”Vaxt”, ”Dan yeri” kimi dinləyicilərin ruhunu oxşayan verilişlər radiotariximizə əbədi həkk olunub, onların bəziləri fəaliyyətini çoxdan dayandırsa da, hələ də yaddaşlarda yaşayır. Hətta, bəzi şərq ölkələrində belə onları lentə yazıb indiyədək öz arxivində saxlayan sadiq dinləyicilər var.

### Ana radiomuz öz dəyərini qoruyub saxlamalıdır

Azərbaycan radiosu həm də xalqımızın 1 əsrlik canlı audioarxividir. Tez-tez ana radiomuzun efirində ötən əsrin müxtəlif dövrlərinə aid verilişlər təkrar yayımlanır və çox böyük maraqla dinlənir. Bu radiokanalda Azərbaycan və dünya musiqisinin şedevrlərini dinləyə biərsiniz, ara müğənnilərinə burda yer yoxdur. Bir sözlə Azərbaycan radiosunu özünə, mədəni zövqünə, incəsənətə hörmət edənlərin radiosu saymaq olar.

Maraqlıdır ki, əvvəllər radioya qulaq asmaq üçün yalnız bir vasitə var idi- radioqəbuiledici, dinləyici isə bol idi. İndi isə, radio dinləmək üçün vasitələr çoxdur, amma dinləyici azdır. Televiziya və internet insanları daha çox cəlb edir. Lakin radionun (bu sətirlərin müəllifinin də arasında olduğu) öz sadiq auditoriyası var və onlar üçün bunu heç nə əvəz edə mir.

Təəssüflə qeyd etmək lazımdır ki, gənc nəsil arasında ana radiomuzu dinləyənlərin sayı getdikcə azalır. Gənclərin çoxu fasiləsiz olaraq hay-küylü musiqilər verən özəl radioları dinləyirlər. Bu stansiyalar bütün günü ancaq musiqi və hərdən də bir neçə dəqiqəlik xəbər buraxılışı verirlər. Nə vaxt açırsan, ya rep gedir, ya bədbin türk mahnıları, ya da subkultura motivli ara mahnıları. Bayağı mövzular, mənasiz söhbətlər, efirə yaraşmayan əcaib səslər

Azərbaycan radiosu isə bütün sahələrdə sanballı proqramlar hazırlayırdı. Xalq mahnıları, muğamlar, saz havaları, tarixi, mədəni, ədəbi verilişlər xüsusilə maraqla dinlənilirdi. Bu radioda yerli və əcnəbi müəlliflərin radiopyeslərini, radiohekayələrini, hətta romanlarını da dinləyə bilirdik. Üstəlik, uşaq verilişləri, radionağılları azyaşlılar üçün çox faydalı idi və maraqla dinlənirdi. Lakin

### Tarixi verilişlər hara yoxa çıxdı?

Təəssüf ki, son vaxtlar köhnə verilişlərin çoxu efirdən yoxa çıxıb. Artıq radionun Ədəbiyyat redaksiyası, Uşaq-gənclər redaksiyası, Maarifçilik redaksiyası, Xalq yaradıcılığı redaksiyası bağlanıb, verilişlər ləğv edilib. Xüsusi layihələr departamenti yaradılıb. Burada yeni layihələr üzrə ”müasir stildə” hazırlanan audioroliklər sadiq dinləciyilərdə narazılıq yaradıb.

Xalq yaradıcılığı redaksiyasının verilişlərindən yalnız 1-i qalıb- ”Bulaq”. Halbuki folklorumuz, qədim mədəniyyətimiz və ədəbi irsimizlə bağlı verilişlərə indi daha çox ehtiyac var. Mənəvi dəyərlərə aid verilişləri bağlayıb, şou verilişlər açmaq Azərbaycan radiosu kimi müqəddəs məbədi müasir özəl radioların səviyyəsinə salmaq olardı.

Ola bilsin bəziləri düşünər ki, müasir dövrdə yeni tipli verilişlərə, mahnılara daha çox maraq var deyə belə edilir. Tam əksinə, təcrübə göstərir ki, dinləyicilər qızıl fonddan olan mahnıları, ədəbi bədii verilişləri dinləməyi daha çox sevir. Məsələn son vaxtlar ən çox dinlənən radiolar Retro FM və Yurd FM-dir ki, onlar yalnız köhnə mahnıları verir, mahnı adı qoyulmuş müasir biabırçlıqları efirə buraxmırlar. Ona görə də, Ana radiomuz ”müasirlik, yenilik” deyib, 100 illik sifətini itirməməli, öz yolunu davam etdirməlidir.

Bu radio ümummilli radiodur, rəsmi dövlət radiosudur və dövlət büdcəsindən maliyyələşdirilir. Kommersiya radiosu deyil ki, biznes maraqları naminə ucuz küçə radiosu səviyyəsinə düşə. Azərbaycan radiosu (o cümlədən televiziyası) tarixi-mənəvi missiyasını davam etdirməli, ənənələrini qorumalı və gənc nəsli milli-mənəvi dəyərlər əsasında tərbiyə edən bir məbəd kimi qalmalıdır.

### 1 əsrlik səs xəzinəmiz necə qorunur?

Əldə etdiyim məlumata görə, radiounun (həm də televiziyanın) arxivindəki xeyli lent yazısı düzgün qorunmadığından artıq sıradan çıxıb və vaxtında rəqəmli formaya keçirilməyib. Çox təəssüf  Radionun (həm də televiziyanın) verilişləri və onun arxivi bizim tarixi mədəni sərvətimizdir, onu qorumalı, yaşatmalı, təbliğ etməliyik. Radioda son 98 ildə səsləndirilmiş mahnılar, müxtəlif mövzulu verilişlər, böyük şəxsiyyətlərimizin çıxışları, pyeslər, hekayələr, romanlar, nağıllar və sair əsərlər xalqımızın qızıl səs fonduna daxildir. Orta və yaşlı nəslə bunlar yaxşı tanışdır, amma gənc nəslə də onu çatdırmalıyıq. Çünki o radiomateriallarda humanizm, zəhmətkeşlik, vicdanlılıq, elmkeşlik, milli-mənəvi irsimizə hörmət kimi gözəl xüsusiyyətlər təbliğ olunur.



Yaxşı olardı ki, bütün köhnə lentlər rəqəmli formaya keçirilsin və verilişlər radionun saytında yerləşdirilsin. Beləliklə, həm ölkədə, həm dünyada yaşayan azərbaycanlılar, o cümlədən tədqiqatçılar istədikləri vaxt bu səs məbədinin arxivindən bəhrələnə bilərlər.

Azərbaycan radiosunu uzun və orta dalğada, həmçinin internet vasitəsilə dünyanın hər yerində dinləmək olurdu. İndi deyəsən bu mümkün deyil, çünki mən orta və uzun dalğada (SV, DV) çox axtardım tapa bilmədim.

Səslər dünyasının tarixində bizim də imzamız var. Bu möhtəşəm imzanın arxasında qiymətli audiosənədlər arxivi dayanır- XX əsrin 100 mindən artıq səs yasısı.

Xalqımızın mədəniyyət məbədlərindən biri olan Azərbaycan radiosunun və televiziyasının dünyasını dəyişmiş bütün yaradıcılarının, işçilərinin ruhu şad olsun. Arzu edirəm ki, Ana radiomuz xalqımızın ”Səs məbədi” funksiyasını daima qoruyub saxlasın. Bayramınız mübarək!

***Elçin Bayramlı***

TARIX

# "Azərbaycan regionda və dünyada böyük hörmətə malikdir"

**Cənubi Qafqaz Strateji Araşdırmalar Mərkəzinin (Rusiya) direktoru Yevgeni Mixaylov "Moskva-Baku" portalına şərhində Rusiya-Azərbaycan müsbət münasibətlərinin MDB üçün əhəmiyyətini qiymətləndirib. Ekspertin şərhini oxucularımıza təqdim edirik.**

*- Yevgeni Aleksandroviç, müsbət Rusiya-Azərbaycan münasibətlərinin bütün MDB məkanı üçün nə kimi əhəmiyyəti var?*

- Rusiya ilə Azərbaycan arasında sabitlik, şəffaflıq, dostluq münasibətləri bütün



MDB, o cümlədən Avrasiya təhlükəsizliyi üçün vacibdir. Vladimir Putinlə İlham Əliyevin Düşənbədəki görüşündən sonra iki ölkə arasında münasibətlər yaxşılaşır, mürəkkəb məsələlərin həlli istiqamətində qarşılıqlı addımlar atılır. Putinlə Əliyev arasında Düşənbədə keçirilən görüş nümayiş etdirdi ki, liderlər arasında şəxsi münasibətlər və onların səmimi təmasları bütün mürəkkəb məsələlərin həlli üçün əsasdır.

Rusiya başa düşür ki, Azərbaycan ciddi regional oyunçudur, onun əməkdaşlığı olma-



dan regionda tam sabitlik və təhlükəsizlik ola bilməz.

Rusiya və Azərbaycan bir çox əlaqələri birləşdirir. Rusiyada inkişaf edən, yaxşı inteqrasiya olunmuş və öz adət-ənənələrini və dinini qorumaq üçün lazım olan hər cür şəraitə malik olan böyük bir Azərbaycan diasporu, Azərbaycanda isə eyni imkanlara malik böyük rus icması yaşayır. Rusiya və Azərbaycan qonşudur. Bizi həm də Xəzər dənizi birləşdirir. Biz böyük strateji layihələri, o cümlədən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizini həyata keçiririk və enerji sektorunda əməkdaşlıq edirik. Əməkdaşlığımızın potensialı da genişdir.

Azərbaycan bu gün türk dünyasında mühüm rol oynayır və həm Qafqazda, həm də Orta Asiyada hörmətə malikdir.

Rusiya və Azərbaycan bir çox dost ölkələri bölüşürlər. Eyni zamanda, Rusiya daha çox müsbət qarşılıqlı əlaqələr quran ölkələrlə münasibətlərdə Azərbaycan üçün körpü rolunu oynaya bilər və əksinə, Azərbaycan Respublikası Bakının daha yaxşı münasibətləri olan ölkələrlə Moskvanın təmasları üçün körpü rolunu oynaya bilər.

Mən şübhə etmirəm ki, bu gün Moskva və Bakının bütün qalan həssas məsələləri həll etmək üçün hər cür imkanı və ən əsası, siyasi iradəsi var. Və ümid edirik ki, iki ölkə arasında münasibətlər bundan sonra da müsbət istiqamətdə inkişaf edəcək.

Bundan başqa, biz görürük ki, Azərbaycanla Ermənistan arasında sülh danışıqları kifayət qədər uğurla gedir. Kim nə deyirsə desin, belə bir sülhün bünövrəsinin qoyulmasına Rusiyanın böyük töhfəsi olub.

Rusiya üçün Zaqafqaziyada sülhün bərqərar olması vacibdir. "3+3" regional əməkdaşlıq formatı (üç Zaqafqaziya respublikası və onların üç böyük qonşusu- Rusiya, Türkiyə və İran) böyük potensiala malikdir. Təbii ki, bu formatda əməkdaşlıq bütün iştirakçılar üçün böyük imkanlar açardı.

O da məlumdur ki, Azərbaycan və Ermənistan qarşılıqlı olaraq tranzit yüklər üçün öz ərazilərini blokdan çıxarıblar, o cümlədən rəsmi Bakının Rusiya yüklərinin Ermənistan Respublikasına tranzitinə icazə verməsi ilə bağlı razılığı var. Bu da əməkdaşlığımızda müsbət meyilləri göstərir.

Gördüyümüz kimi, MDB Plus qarşılıqlı fəaliyyət formatı yaradılmışdır. Bu, yalnız Birlik çərçivəsində dost ölkələrin sayını genişləndirəcək və onun məkanını gücləndirəcək".

***Tərcümə - Elçin***

# "Zəfərimiz Azərbaycan xalqının əzmini dünyaya nümayiş etdirən tarixi hadisədir"

"Azərbaycan xalqı 8 Noyabr Zəfər Gününü yalnız hərbi qələbə olaraq deyil, həm də tarixi ədalətin bərpası, milli qürurun və dövlətçilik iradəsinin təntənəsi kimi qeyd edir. Eləcə də, otuz ilə yaxın işğal altında qalan torpaqlarımızın azad edilməsi və Qarabağ həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması bu günün dərin mənəvi-siyasi məzmununu formalaşdırır. Heç şübhəsiz ki, qələbəmiz sadəcə bir savaşın nəticəsi deyil, eyni zamanda Azərbaycan dövlətinin siyasi iradəsinin, ordusunun peşəkarlığının və xalq-dövlət birliyinin parlaq göstəricisidir. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında vahid məqsəd uğrunda birləşdi". Bu sözləri SİA-ya açıqlamasında politoloq Aytən Qurbanova deyib. Onun sözlərinə görə, cənab Prezident İlham Əliyevin uzaqgörən siyasi strategiyası, müdrik diplomatik addımları və informasiya müharibəsindəki qətiyyətli mövqeyi sayəsində hərbi cəbhədəki uğurlar diplomatik müstəvidə də möhkəmləndirildi: "Bu siyasətin nəticəsində Azərbaycanın haqlı mövqeyi beynəlxalq aləmdə qəbul olundu, regionda yeni geosiyasi reallıq formalaşdı və ölkəmiz Cənubi Qafqazın əsas təhlükəsizlik dayaqlarından birinə çevrildi. Zəfər günü eyni zamanda post-müharibə mərhələsinin başlanğıc nöqtəsi olaraq da qeyd edilə bilər. Digər tərəfdən




isə Azad edilmiş ərazilərimizdə həyata keçirilən "Böyük Qayıdış" proqramı, şəhərsalma və infrastruktur layihələri, ağıllı kənd və şəhər konsepsiyaları Azərbaycanın yenidənqurma və sülh quruculuğu modelini formalaşdırır. Bu proses yalnız iqtisadi dirçəliş deyil, eləcə də dinc inkişaf, regional əməkdaşlıq və ədalətli sülhün möhkəmləndirilməsi məqsədi daşıyır. Beləliklə də, Azərbaycan öz Zəfərini revanşizm vasitəsinə deyil, sabitliyin və tərəfdaşlığın təməl prinsipinə çevirib.

Hərkəsə məlumdur ki, Vətən müharibəsindəki üstünlüyümüz təsadüfi amillərlə deyil, sistemli hərbi modernləşmə, texnoloji yenilənmə və strateji düşüncə ilə təmin edilib. İlk növbədə onu qeyd etmək lazımdır ki, Azərbaycan ordusu müharibə zamanı müasir döyüş texnologiyalarını inteqrasiya edən model tətbiq etdi. Dron və pilotsuz uçuş aparatlarının kəşfiyyat və zərbə əməliyyatlarında istifadəsi hərbi əməliyyatların taktiki gedişatını köklü şəkildə dəyişdi. Türkiyə istehsalı olan Bayraktar TB2 dronları, İsrailin kamikadze sistemləri və kəşfiyyat avadanlıqları düşmənin hava hücumundan müdafiə sistemlərini sıradan çıxardı və ordunun hərəkət planlarını iflic etdi. Bu da öz növbəsində klassik müharibə üsullarından fərqli olaraq, "ağıllı müharibə" modelinin regional miqyasında ilk tətbiqi kimi tarixə düşdü. Həmçinin Azərbaycan Silahlı Qüvvələrinin müasir komanda-idarəetmə sistemi və operativ qərarvermə mexanizmi ilə fərqləndiyini aydın şəkildə ifadə etmək mümkündür. Müharibə zamanı döyüş əməliyyatları mərkəzləşdirilmiş şəkildə koordinasiya olunur və kəşfiyyat məlumatları dərhal təhlil edilərək əməliyyatlara tətbiq edilirdi. Şübhəsiz ki, bu taktiki çevikliyin və dəqiqliyin təminatına çevrilən önəmli məqamlardan biridir.

Onu da mütləq şəkildə qeyd etmək lazımdır ki, Azərbaycan əsgəri Vətən uğrunda döyüşün mənəvi motivasiyası ilə yüksək birlik və həmrəylik nümayiş etdirərək düşmən üzərində mütləq qələbə qazanmağa müvəffəq oldu. Şəhidlik ideyasına sadiqlik, xalq-dövlət birliyi və xalqın ordusuna sonsuz dəstəyi döyüş meydanında mənəvi qələbəni təmin edən əsas təsiredici məqamardır. Azərbaycan yalnız hərbi deyil, həm də informasiya və diplomatik cəbhədə də üstünlük qazandı. Dövlətimizin beynəlxalq hüquq normalarına əsaslanaraq ərazi bütövlüyümüzü bərpa etmək üçün atdığı bütün addımlarda xarici təzyiqlərlə təkbaşına mübarizə aparaaraq suveren qərarvermə prinsipindən heç vaxt geri çəkilmədi. Eyni zamanda, informasiya təhlükəsizliyi sahəsində aparılan məqsədyönlü işlər dezinformasiya cəhdlərinin qarşısını aldı və beynəlxalq ictimaiyyətin obyektiv məlumatlandırılmasına şərait yaratdı. Məhz bu nöqteyi-nəzərdən yanaşdıqda, Zəfər günü sadəcə bir tarix deyil, Azərbaycanın yeni mərhələyə qədəm qoyduğu, milli ruhun və dövlətçilik ideyasının zirvəyə ucaldığı gündür. Bu gün milli həmrəyliyin, qürurun, suverenliyin və gələcəyə inamın rəmzidir. Zəfərimiz Azərbaycan xalqının əzmini və dövlətimizin müdrikliyini dünyaya nümayiş etdirən tarixi hadisədir".

***Arzu Qurbanlı***

# "Xarici dəstəyə güvənlə hakimiyyət olmaz"

"AXCP və Müsavat çox təəssüf ki, 90-cı illərin əvvəllərində qalmış və bir addım da irəli getməmiş insanların toplaşdığı partiyalardır". Bu barədə SİA-ya siyasi ekspert Abutalıb Səmədov bildirib. Onun sözlərinə görə, düşmənçilikdən güc alan, düşmənçilik təbliğatı aparan, öz həmvətənlərinə qarşı kin və qəzəb bildirməkdən çəkinməyən liderlər çox təəssüf ki, son 30 ildə dəyişə bilməyiblər. Zorakı vasitələrlə hakimiyyətə gəlmiş və qısa müddətdə səriştəsizlikləri, bacarıqsızlıqları, savaşsızlıqları ucbatından hakimiyyəti təhvil vermək məcburiyyətində qalan bu insanlar yenə də ümidlərini zorakılığa bağlaya bilirlər. Bəlkə də "qaytardılar" ümidilə yaşayırlar. Anlamaq istəmirlər ki, şərait dəyişib.

Siyasət insanlara ümid vermək, insanları inandırmaq sənətidir və ortaya real bir şey qoymasan, insanlar sənin həqiqətən də sabahkı, bacarıqlı, güclü siyasi lider olduğuna inanmasalar, sənin arxanca gəlməyəcəklər və gəlmədilər. Onda ümid qalır xaricdən dəstək almağa. Xarici qüvvələrə güvənib hakimiyyəti ələ keçirməyə cəhd göstərə bilirlər. Çox təəssüf edirəm ki, həm AXCP, həm də Müsavat xalqdan daha çox xarici qüvvələrə ümid edən, güvənən partiyalardır və anlamırlar ki, onların bu düşüncələri, bu istiqamətdə atdıqları addımlar heç bir nəticə verməyəcək.

İnanıram ki, siyasi partiyalara qarşı heç bir mübarizə olmamalıdır. Qanunun tələb etdiyi sayda üzvü olmayan partilər barədə də qanunda nəzərdə tutulan tədbirlər görülməlidir. Onların ləğvi məsələsi də qaldırılmalıdır. Bugün Azərbaycanda 5 min rəsmi üzvü olan partiyaların sayı 26 ola bilməz. 3, 4, 5-dən o yana keçmir və "Siyasi partiyalar" haqqında qanunun tələblərinə cavab verməyən partiyalara güzəşt edilməməlidir. İlk növbədə isə bu, AXCP və Müsavat partiyalarına aiddir".

***Günel Fərzəliyeva***

# Stres bədəni necə dəyişdirir?



***İnsan hər gün görünməyən, amma bədəni içəridən dəyişdirən bir qüvvə ilə qarşılaşır - stres ilə. Stres çox zaman "narahatlıq", "gərginlik" və ya "kədər" kimi təsvir edilir, lakin əslində o, bədənin təhlükə siqnalına verdiyi cavabdır. Hətta təhlükə real olmasa belə, beyin onu real qəbul edir və bədəni müdafiə vəziyyətinə keçirir. Bu zaman ürək döyüntüsü artır, nəfəs sürətlənir, əzələlər gərilir, hormonlar yüksəlir.***

Əgər insan bu vəziyyətdə qısa müddət qalırsa, stres faydalı ola bilər - o, güc, diqqət və reaksiya sürəti verir. Lakin günlərlə, aylarla və illərlə davam edən stres artıq bədən üçün yükə çevrilir. Çünki bədən daimi "döyüşə hazır" vəziyyətdə qalır və bu, orqanların yorulmasına, hormonların pozulmasına, yuxusuzluğa, dəri problemlərinə və hətta xəstəliklərə səbəb olur. Yəni stres təkcə emosional problem deyil - fiziki dəyişikliklərin başlanğıcıdır.

## Stres beyində necə yaranır?

Beyin ilk növbədə vəziyyəti təhlükəli



və ya təhlükəsiz kimi qiymətləndirir. Əgər beyin narahatlıq hiss edirsə:

## Hipotalamus aktivləşir

*Bədənə kortizol və adrenalin hormonlarının artırılması əmri gedir*

**Bütün sistemlər "hazırlıq vəziyyətinə" keçir**

Bu hormonlar qısa müddətdə insana güc verir, lakin uzun müddətdə onları yüksək saxlamaq beynin yaddaş və emosional idarəetmə mərkəzlərini zəiflədir. Bu zaman insan: diqqətini toplamaqda çətinlik çəkir, qərar verməkdə tərəddüd edir, kiçik problemlərə emosional reaksiya göstərir.

## Stres ürək və qan dövranına necə təsir edir?





Stres zamanı bədən sanki qaçmağa və ya döyüşməyə hazırlaşır. Buna görə: Ürək daha sürətli döyünür, qan təzyiqi yüksəlir, qan damarları daralır, əgər bu vəziyyət tez-tez təkrarlanarsa: xroniki təzyiq yüksəlməsi, damar elastikliyinin itməsi, ürək yüklənməsi baş verir. Uzunmüddətli stres ürək-damar xəstəliklərinin əsas risk faktorlarından biridir.

## Stres nəfəs və enerji sistemini necə dəyişdirir?

Stres zamanı nəfəs dərinləşmir, əksinə sürətlənir və səthi olur. Bu, beyinə və əzələlərə oksigenin tam çatmamasına səbəb olur. Nəticədə insan: tez yorulur, tez əsəbiləşir, "bədənimdə güc qalmadı" hissi yaşayır. Bu enerji çatışmazlığının səbəbi əslində psixoloji deyil - bioloji prosesdir.

## Həzm sisteminə təsiri...

Bəli, çox. Çünki bədən döyüş vəziyyətində olanda həzm sistemi ikinci plana keçir. Bu zaman: mədə turşusu artır, bağırsaq hərəkətləri pozulur, iştah azalır və ya əksinə, emosional yemək başlayır. Həkimlərin qeyd etdiyi "stres mədəsi" məhz buradan yaranır.

## Stres immun sistemini zəiflədir?

Davamlı stres zamanı kortizolun yüksək qalması immun hüceyrələri zəiflədir. Nəticə: Soyuqdəymə və infeksiyalar daha tez baş verir, yaralar gec sağalır, dəri daha tez iltihab olur. Bu səbəbdən stres keçirdikdə çoxları sızanaq, qaşınma və allergiya yaşayır.

## Stres bədəndə xarici görünüşü necə dəyişdirir?

Stres yalnız hiss olunan psixoloji vəziyyət deyil - o, üz cizgilərini, dərini, saçları və bədən duruşunu dəyişdirən fiziki reaksiyadır. Sağlam dəri üçün kollagen və elastin vacibdir. Lakin kortizol (stres hormonu) uzun müddət yüksək qaldıqda kollagen istehsalı azalır. Bu zaman: üz solğunlaşır, göz altı kölgələr tündləşir, dəri öz parıltısını itirir, sızanaqlar artır, üzdə xırda qırışlar daha tez görünməyə başlayır, dəri bədəni içəridən oxuyan aynadır - stres gizlənmir, üzə çıxır.

Saçlar da bu prosesin təsirindədir: Stres saç follikullarının qidalanmasını azaldır, saç kökləri zəifləyir, saç tökülməsi və nazikləşmə başlayır. Bəzən insan saç tökülməsinin səbəbini şampunda axtarır, amma problem çox vaxt psixoloji və hormonaldır.

## Stres insanın yemək davranışını necə dəyişdirir?

Bədən stres altında olarkən iki fərqli yemək modeli ortaya çıxa bilər:

1. İştahanın azalması - Bədən təhlükə siqnalı aldığı üçün yeməyi ikinci plana atır. Çünki beyin "bu anda sağ qalmaq vacibdir" deyə düşünür.

2. Həddindən artıq yemək (emosional yemək) - Digər insanlarda isə əksinə, beyin qısa müddətli rahatlama üçün şəkər və yağlı qidalar istəyir - çünki onlar dopamin artırır.

Bu, müvəqqəti rahatlıq - sonra peşmanlıq döngüsü yaradır. Bu səbəbdən bir çox insan stres zamanı: şirniyyata həvəs göstərir, gecə yeməyə başlayır, çox yeməyin ardınca özünü günahlandırır. Davamlı şəkildə bu vəziyyət çəki artımına və ya tam əksinə, sağlam çəkinin itirilməsinə səbəb ola bilər.

## stresin emosional təsirləri...

Stres beynin emosional mərkəzi olan amigdalanı gücləndirir, mühakimə və qərarvermə mərkəzi olan prefrontal korteksin fəaliyyətini isə zəiflədir. Bu səbəbdən insan: Daha tez inciyir, daha tez əsəbləşir, kiçik şeyləri böyük problem kimi görür, özünü idarə etməkdə çətinlik çəkir, sosial münasibətlərdə geri çəkilir. Stres həmçinin: özünəinamı azaldır, motivasiyanı zəiflədir, böyük işləri başlamağı çətinləşdirir. İnsan düşünür ki, "Çalışıram, amma heç nəyə gücüm çatmır". Əslində, bədən yorulmayıb - beyin yorulub.



## Stres uşaqlarda və yeniyetmələrdə necə özünü göstərir?

Stres böyüklərdə ən çox: əsəbilik, yorğunluq, susqunluq, şəklində görünürsə, uşaqlarda və yeniyetmələrdə tam fərqli şəkildə ortaya çıxır. Uşaqlarda:

yuxuda qorxular, yersiz ağlama, mədə ağrıları, diş sıxma, evin içində aqressiya və ya tam sakitlik.

Yeniyetmələrdə: qapanma, telefon və internetə qaçış, özünü ifadə etmədə çətinlik, özünə dəyər hissinin azalması, uşağın davranışı bəzən "xasiyyət" kimi görünür, amma çox vaxt o, danışa bilmədiyi stresi bədəni ilə göstərir.

***Günel Fərzəliyeva***



İLHAM

# Görən pul güclüdür, yoxsa daydayı?

Son vaxtlar keçmiş məmurların, xüsusilə də Ramiz Mehdiyevin 34 milyard manatlıq əmlakı, Əli Həsənovun 8 milyard manatlıq, Abel Məhərrəmovun 13 milyrad manatlıq, keçmiş nazirlərdən Fazil Məmmədovun 21 milyard, Səlim Müslümovun 27 milyard. Vasif Talıbovun 26 milyard manatlıq və digər keçmiş vəzifə mənsublarının gözqamaşdıran var-dövlətinin siyahısı ilə tanış olandan sonra özümdən şübhələnməyə başlamışam. Birincisi, öz-özümə söylənmişəm ki, mən çox fərsizəm, ikincisi bacarıqsızam. Nəhayət, o qənaətə gəlmişəm ki, bu ölkə əhalisinin böyük hissəsi elə mənim günümdədir. Yəni fərsiz və bacarıqsızdılar. Pulu necə və hansı formada talan etmək haqqında araşdırmalar aparmağa vaxtım olmasa da, gəldiyim fikir ondan ibarətdir ki, pul qazanmaq üçün gərəkdir ki, daydayın olsun. Səbəbsiz yerə el arasında deyilməyib ki, bir milyon manatın olmasa da olar, əsas odur ki, daydayın olsun. İş yoldaşlarımdan biri ilə söhbətində isə o məni inandırmağa çalışdı ki, "Azərbaycan reallığında əsas vasitə puldur, pul olsa daydayı özü səni axtarıb tapacaq." Nə isə, dostumuzn yanaşması belədir, ancaq elimizdə, obamızda bir məsəl də var, deyirlər ki, "filankəsin gözü ayağının altını görmür". Ya da söyləyirlər ki, "filankəs qudurub". Səbəb nədir, niyə insan qudurur və ya gözü ayağının altını görmür? Araşdıranda məlum olur ki, xəta pulun çox olmasından və ya vəzifənin yüksək dozasından yaranır. Elə ona görə də insanlar atmaca atandan sonra həmin atmacanın şərhini də verib, deyirlər ki, filankəs o qədər varlanıb və vəzifə kreslosunda şişib ki, qohum-əqrəbanı saymır, dost-tanışa da salam-kəlam vermir.

Adət edilən və tez-tez təkrarlanan fikirdə ondan ibarətdir ki, "mənim pulum və ya vəzifəm olsa filankəs kimi harın və quduğan olmaram". Başqa birisi də deyir ki, "pulum olsa kasıblara, fağırlara əl tutub yardım edərəm". Üçüncüsü isə deyir ki, çoxlu varım-dövlətim olsa, məscidlər tikərəm, yollar salaram, insanların sosial-məişət problemlərini həll edərəm. Diqqətçəkən xəyalların, arzuların dilə gətirənlər də olur: Məsələn, "Pulum olsa filan şeyi alaram, filan şeyi edərəm və qohumlarımı yandıraram". Bəzən xoruzlanıb, yekə-yekə danışanlarda olur: "Pul, para xoşbəxtlik gətirmir", "xoşbəxtliyi pulla almaq olmaz". Ancaq və lakin bir həqiqət var ki, müasir dövrün yarıtmaz və əcaib tələbləri mövcuddur. Pul olmadan həyatda yaşamaq, sağlam ömür sürmək mümkün deyil. Pul olmadan mağazadan 40 qəpiklik çörəyi almaq evində sadə süfrə açmaq çətindir. İndi orta əsrlər deyil ki, məhsulların dəyişdirilməsi, yəni mübadilə edilməsi həyata keçirilsin. Məlum faktdır ki, əcdadlarımız öz tələbatından artıq qalan qida məhsullarını başqa şəxslərin istehsal etdikləri və ya hazırladıqları digər məhsullarla dəyişdirmək yolu ilə mübadilə etmişlər. İndiki müasir dövr isə alqı-satqı əməliyyatlarını nağd və ya kart vasitəsi ilə edilməsini tələb edir. Pulun varsa kefin kök, damağın çağdır, yoxdursa vay sənin halına. Pulun olmadan sərnişin avtobusuna minməyə cəhd etsən, sürücü sənin sinəndən yumruqla vurub, çölə atar. Metroda dəmir keçid sənə metroya minməyinə əngəl yaradar. Hələ o yekəyekə işləri demirəm, onları ki, pulun olmasa ev tikmək, yurd salmaq, oğul evləndirmək, qız köçürmək və digər pula bağlı məsələləri həll etmək çətin və müşkül məsələdir.

Bəli, müasir dövrün maddi, sosial və mədəni maraqlarını əhatə edən pul bəşər övladları üçün yaşayış mənbəyi olub və yəqin ki, dünya durduqca belə davam edəcək. Məxluqlar olacaq ki, var dövlət əldə etmək, vəzifə pillələrində yüksəlmək üçün ağılasığmaz vasitə və üsullardan istifadə edəcək, onlarla insanın haqqına girəcək, hüquqların tapdalayacaq, mənən yaralamaqdan, cismən öldürməkdən çəkinməyəcək.

Pulla bağlı cəmiyyətin mövqeyinin öyrənmək üçün sosial şəbəkələrə də nəzər yetirdim. Məlum oldu ki, əmmaməli mollaların şinelindən çıxan elə ünsürlər var ki, onlar özlərini hər kəsdən ağıllı göstərməyə çalışır, pulu, var dövləti necə əldə etməyin, qazanmağın yollarını "göstərirlər". Məsələn, yazırlar: "Evdən çıxmadan pul qazanmağın 39 real yolu", "Kiçik sərmayə ilə hansı biznesi qurmaq olar? , "Varlanmağımıza mane olan 10 vərdiş.", "Az pulla hansı işi qurmaq olar? Və sair və ilaxır "ağıllı məsləhətlər". Halbuki, bu məsləhətlərlə çıxış edənlərin özləri ac yalavac gündə yaşayırlar. Belə, pul vacibdir, lakin əsas deyil. Vacib olanı şərəfimiz, ləyaqətimiz, sağlamlığımız və yaxınlarımızdır. Allah şərəfimizi, ləyaqətimizi, sağlamlığımızı əlimizdən almasın, əzizlərimizi bizdən məhrum etməsin.

# Okeandan gələn fəlakət: sunami

*5 noyabr Ümumdünya Sunami Məlumatlandırma Günüdür*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ekologiya və ətraf mühitin mühafizəsi "istiqaməti çərçivəsində hazırlanıb*







***Sunami, okeanda və ya dəniz dibində qəfil sualtı hərəkəti nəticəsində böyük miqdarda su, məsələn, böyük zəlzələ, vulkan püskürməsi, sürüşmə və ya nadir hallarda meteoritin düşməsi nəticəsində baş verir. Bu hadisələr dəniz suyunda tarazlığın pozulmasına səbəb olur və okean dibi boyunca yayılan uzun dalğalar yaradır.***



Sunami baş verməsi üçün dəniz dibində böyük bir su hövzəsini qəfildən yerindən tərpədən bir hadisə olmalıdır. Sunamilərin ən böyük səbəbi dəniz dibi zəlzələləridir və dəniz dibində əhəmiyyətli dərəcədə eniş və ya yüksəlişə səbəb olan subduksiya qırılmaları boyunca baş verən böyük zəlzələlər sunamilərə səbəb ola bilər. Dəniz dibində güclü vulkan püskürməsi qəfildən su sütununu yerindən tərpədə bilər və sunami yarada bilər. Zəlzələlər və ya vulkan püskürmələri kimi hadisələr nəticəsində dəniz altında baş verən böyük sürüşmələr və ya qaya sürüşmələri suyu yerindən tərpədə və sunamiyə səbəb ola bilər. Daha az rast gəlinən səbəblər böyük meteoritlər və ya nüvə sınaqlarıdır.



Tarixin ən böyük sunamisi bizim əsrdə baş verdiyi üçün hamımız bunun şahidi olduq. 2004-cü ildə Hind okeanında, Sumatra adasının sahillərində baş vermiş 9 bal gücündə zəlzələ nəticəsində 2 milyona yaxın insan evsiz qalmış, 230 min insan həyatını itirmişdi. 1815-ci il aprelin 10-da İndoneziyanın Sumbava adasındakı Tambora vulkanının püskürməsi, lava püskürməsi nəticəsində 12.000 insan həyatını itirdi, daha sonra isə kül səpələnməsi səbəbindən kənd təsərrüfatı məhv olduğu üçün 90.000-dən çox insan həyatını itirdi. Partlayış səbəbindən həmin il Şimal yarımkürəsində yay olmadı və buna görə də kənd təsərrüfatı işləri tamamilə dayandı.

Qasırğalar da sunamilərə səbəb ola bilər. Sunamilərin 80 faizi Sakit Okeanda yaranır. Sunami dalğaları ənənəvi sualtı cərəyanlardan və ya dəniz dalğalarından fərqlidir, çünki onların dalğa uzunluqları daha uzundur. Sunami əvvəlcə sürətlə artan qabarmaya bənzəyə bilər, buna görə də qabarma dalğası adlanır. Sunamilər ümumiyyətlə dəqiqə və saat arasında dəyişkən dövrləri olan bir sıra dalğalardan ibarətdir. Böyük fəlakətlər onlarla metr hündürlükdə dalğaların nəticəsində yarana bilər. Sunamilərin təsiri sahil əraziləri ilə məhdudlaşsa da, onların dağıdıcı gücü çox böyük ola bilər və bütün okean hövzələrinə təsir göstərə bilər.

Bəzən dəniz dibində zəlzələ və ya vulkan püskürməsi baş verir. Bu hadisələr iki istiqamətdə yayılır, biri suyu okean dibindən səthə doğru itələyir. Bəzən sahilə çatdıqda kilometrlərlə irəliləyə bilirlər. Bu dalğalar açıq dənizdə saatda 800 kilometrə qədər sürətlə hərəkət edir, lakin hündürlüyü çox da böyük deyil. Daha dayaz su səviyyəsinə çatdıqda dalğalar yavaşlayır.

Dalğanın sürəti qəfildən azalır və sonra güclənir. Dalğanın uzunluğu bəzən 30 metrə çata bilər. Tropik siklonlar kimi bəzi meteoroloji şərait, fırtınalar zamanı dəniz səviyyəsinin çox yüksəlməsi halında böyük aşağı təzyiqli ərazilər yarada və sunamilərə səbəb ola bilər.

Sunamiləri proqnozlaşdırmaq demək olar ki, mümkün deyil. Sahil suları qəfildən geri çəkilərsə, bir neçə dəqiqəlik xəbərdarlıq mümkün ola bilər. Bu, dalğalar arasındakı boşluq dalğanın zirvəsindən əvvəl sahilə çatdıqda mümkündür. Dəniz suyu nə qədər dərindirsə, dalğalar bir o qədər sürətli hərəkət edir. Məsələn, Sakit Okeanın ortasında orta dərinlik 4000 metrdir və bu dərinlikdə sunamilər saatda 720 km (450 mil) sürətlə yayılır.





Bu sürət təxminən reaktiv təyyarənin sürətinə bərabərdir. İki dalğa arasındakı məsafə 200 km-ə qədər ola bilər.

Sunamilərdə insan faktorları birbaşa fəlakətlərə səbəb olmasa da, müəyyən dərəcədə təsiri var. İnsan tərəfindən törədilən ətraf mühit dəyişiklikləri, qeyri-kafi infrastruktur və fəlakətlərə hazırlığın olmaması da səbəbdir. Xüsusən də sahil ərazilərində tikinti və çirklənmə, sunamilərin təsirini artıra bilər. Sahildəki qorunan ərazilərin məhv edilməsi dalğaları daha dağıdıcı hala gətirə bilər.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
6 noyabr
2025-ci il

# “Xoşbəxtlik sadə şeylərdə gizlidir”



## AYDINLIQ GƏTİRİLDİ

”Xoşbəxtlik nisbi anlayışdır. Hər bir insanın xarakteri müxtəlif olduğuna və həyat tərzi fərqli olduğuna görə, onların xoşbəxtlik anlayışı da bir-birindən fərqlənir”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı deyib. Onun sözlərinə görə, buna görə də xoşbəxtliyi müəyyən bir düsturla və ya standartla ölçmək doğru deyil: ”İnsanlar öz daxili aləmlərinə, həyata yanaşmalarına və yaşantılarına görə fərqli xoşbəxtlik mənbələri seçirlər. Xoşbəxtlik, əslində, məqsədə çatmaq deyil, o məqsədə gedilən yolun özüdür. Yoldakı həyəcan, axtarış, çətinlik və nəticədə əldə edilən kiçik qələbələr insanın içində xoşbəxtlik duyğusu yaradır. Lakin hər kəs bu prosesi fərqli şəkildə qəbul edir və bununla özünəməxsus şəkildə barışır. İnsan keçmişinə, bu gününə və gələcəyinə baxdığı zaman bunlar arasında içində rahatlıq və ahəng tapırsa, deməli o, öz xoşbəxtliyini dərk etmiş sayılır.

Xoşbəxtlik çox zaman ani bir hissdir. Bəzən gözlənilmədən gəlir və çox sadə bir səbəbdən doğur. Hər kəs özünü müxtəlif şeylərlə xoşbəxt edə bilər. Məsələn, dadlı bir yeməkdən zövq almaq, sevdiyin insanlarla birlikdə vaxt keçirmək, xoş mənzərəli bir yerdə gəzmək və ya sadəcə səmimi bir söhbət etmək belə insanın ruhuna rahatlıq gətirə bilər. Bu səbəbdən xoşbəxtliyin müəyyən olunmuş bir sənayesi, qaydası və ya ölçüsü yoxdur. Əsas olan odur ki, insan özünü harada rahat hiss edirsə, nə ilə xoşbəxt olursa və öz varlığını harada dəyərləndirə bilirsə, elə orada onun xoşbəxtliyi gizlənib. Xoşbəxtlik insanın özünüdərkindən başladığı üçün hər kəs onu öz ürəyində və həyatında tapmalıdır”.

*Günel Fərzəliyeva*

**“SƏS” qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Növbəti ildən pensiyalar 9,2 % artırılacaq” - Deputat



Gələn ildə də pensiyaların indeksləşdirilməsi və artırılması həyata keçiriləcək. Bununla, 2026-cı ilin yanvar ayından etibarən bütün növ əmək pensiyalarının artımı baş verəcək. Trend xəbər verir ki, bunu bu gün Milli Məclisin deputatı Vüqar Bayramov parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq və Əmək və sosial siyasət komitələrinin birgə iclasında ”Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı deyib.

Deputat bildirib ki, bu artım təxminən 1 milyon 100 min vətəndaşı əhatə edəcək və 2025-ci ildə nominal orta aylıq əmək haqqındakı artım faizinə uyğun həyata keçiriləcək: ”Belə ki, bu ilin ilk 9 ayında orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,7 faiz artaraq 1093 manata çatıb. İlkin gözləntilərə əsasən, gələn ildən pensiyalar 9.2 faiz artırılacaq”.

# Avtovağzal və avtostansiyalar gücləndirilmiş rejimdə çalışacaq - AÇIQLAMA

8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü ilə əlaqədar respublika ərazisində fəaliyyət göstərən bütün avtovağzal və avtostansiyalar əhalinin nəqliyyat xidmətləri ilə keyfiyyətli və davamlı şəkildə təmin edilməsi üçün 8-11 noyabr tarixlərində gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Bu barədə SİA-ya Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA) istinadən xəbər verir.




Məlumata görə, AYNA şəhərlərarası və rayonlararası marşrutlar üzrə sərnişindaşımaları yerinə yetirən daşıyıcılar tərəfindən fasiləsiz və təhlükəsiz hərəkətin təmin edilməsi, kassalardan tariflərə uyğun biletlərin qanunamüvafiq qaydada satışının həyata keçirilməsi, yarana biləcək sərnişin sıxlığının qarşısının alınması, eləcə də avtobusların təsdiq edilmiş cədvəl üzrə hərəkət qrafiklərinə ciddi riayət edilməsi ilə bağlı bütün avtovağzal və avtostansiyalara müvafiq tapşırıqlar verib. Bakı Beynəlxalq Avtovağzal Kompleksində (BBAK) bayram günlərində sərnişin axınına uyğun olaraq, marşrutlar üzrə xətlərə buraxılan avtobusların intervalına, sürücülərin sərnişindaşımada təhlükəsizlik qaydalarına əməl etmələrinə xüsusi nəzarət olunacaq.

Sərnişin sıxlığının qarşısını almaq üçün xəttə lazımi sayda əlavə avtobusun buraxılması təmin ediləcək. Vətəndaşlar biletləri avtovağzalların kassalarından, həmçinin, ”biletim.az” portalından onlayn qaydada əldə edə bilərlər. Qeyd edək ki, ”biletim.az” portalında 56 şəhər və rayona, 86 istiqamət üzrə bilet almaq mümkündür. Sistemə 346 reys olmaqla 394 nəqliyyat vasitəsi qoşulub. Onlayn bilet satışı sistemi mərhələli şəkildə sərnişindaşıma sahəsində xidmət göstərən bütün daşıyıcı və avtovağzalları əhatə edəcək.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000